35_27 IYUl-QARA.qxd 10/10/2024 10:34 PM Page 1

UNİKAL

№37 (2219) 11 oktyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Azərbaycan Ermənistana qarşı beynəlxalq məhkəmədə iddia qaldırıb



Səh.2



## "İqlim dəyişikliyi problemlərini dar düşüncələrlə həll etmək olmaz"

*İqlim dəyişikliyinin yaratdığı problemləri sərhədlər, dar düşüncələr, dar maraqlar çərçivəsində həll etmək olmaz. Biz bir yerdə işləməli, açıq və dürüst dialoqda iştirak etməliyik. Sessiya COP29-da uğurlu danışıqların aparılması üçün təşkil olunub. Gündəlikdə duran məsələlərin əhəmiyyətini nəzərə alaraq biz mümkün qədər onları əvvəlcədən razılaşdırmalıyıq". "Unikal" xəbər verir ki, bunu Heydər Əliyev Mərkəzində COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda keçirilən PRE-COP29 açılış mərasimində deyib.*

Səh.8

## "Azərbaycana qarşı belə siyasi təzyiqlər səmərəsizdir"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, ABŞ konqresmenlərinin Azərbaycana sanksiyalar tətbiq etmək çağırışının məqsədlərindən, Ağ Evin İrəvana qarşı bu addımı atmamasından, Ermənistanın Baş naziri Nikol Paşinyanın saxta sülh ritorikasından və Avropa İttifaqının Azərbaycanla...*

Səh.4

## Azərbaycandakı özəl liseylərin qandonduran qiymətləri!



*Təhsil haqları növbəti dəfə bahalaşdırıldı; müəyyənləşdirilən qiymətlərlə verilən təhsilin keyfiyyəti arasında uçurum yaranıb, işin içində inhisarçılıq da var! - Sensasion iddialar... Azərbaycanda yeni tədris ilindən etibarən özəl liseylərdə təhsil haqqı yenidən bahalaşıb. Bu barədə Sputnik Azərbaycan...*

Səh.7

## "Qarabağın turizm potensialından sıx şəkildə istifadə olunacaq"



*Turizm zonalarında iri müəssisələrin fəaliyyəti qadağan edilir. "Turizm haqqında" qanuna edilən dəyişikliklər II oxunuşda müzakirə edilərək plenar iclasa tövsiyə olunub. "Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, yeni dəyişikliklərə əsasən...*

Səh.4

35_27 IYUI-QARA.qxd 10/10/2024 10:40 PM Page 2



# Vəfa Şərifova Afət Fərmanqızını məhkəməyə verdi



***Müğənni Vəfa Şərifova həmkarı Afət Fərmanqızını məhkəməyə verib.***

Bu barədə o, "Rəngarəng" verilişində deyib. Vəfa bu addımı Afətin sosial mediada onun ünvanına səsləndirdiyi fikirlərə görə atdığını söyləyib: "Bəli, Afəti məhkəməyə vermişəm. Bu mövzu haqqında çox danışmaq istəmirəm. İş məhkəmədədir. Elə mövzular bu verilişdən başlayıb. Ailəmə və mənim şəxsiyyətimə söyüş, təhqir olub. O dövrdə belə məhkəməyə müraciət etmədim. İndi görün hanı həddə gəlmişəm ki, məhkəməyə müraciət etmişəm. Buraya sosial şəbəkələrdəki canlı yayımlar, paylaşımlar, səhifələrdə yayılması, bir sözlə çox şey daxildir".

Vəfa aprıcının Afəti onun oğlunun toyuna çağırdığı halda niyə getməməsini isə instaqramda canlıda ünvanına "Oğlumun toyuna sırtıqlıq edib gəlməz yəqin" deməsinin səbəb olduğunu açıqlayıb.

Afət özü də efirə telefonla qoşularaq Vəfanın onu məhkəməyə verməsində heç bir problem görmədiyini vurğulayıb: "Lap gözəl. Problem yoxdur. Onun ustadı güclüdür. 60 yaşlı biridir. Mahnını oxudu, sonra sildi. O qadının əli ilə yenidən bu məsələni açdı. Qanun qarşısında boynum qıldan incədir. Artıq hüququşünas olmuşam. Qanuna görə cəzası cərimədir. Əgər təhqir də varsa, sübutu yetirilərsə, problem yoxdur".

Qeyd edək ki, Xalq artisti Flora Kərimova da müğənni Afət Fərmanqızını onu təhqir etdiyi üçün Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə ittiham olunmasını tələb edib. Xüsusi ittiham qaydasında Binəqədi Rayon Məhkəməsinə müraciət olunub.

Afət F.Kərimovanı da oğlunun toyuna çağırıb. Sənətçi Afətin dəvətini qəbul etmədiyini açıqlayıb.

# Telli Borçalının adından dələduzluq edildi

***Aşıq Telli Borçalı sosial şəbəkələrdə adından istifadə edərək dələduzluq edildiyini bildirib.***



"Unikal" xəbər verir ki, bu barədə aşıq "7 tamam" verilişində qonaq olarkən deyib. O, adına açılan saxta sosial media hesabı ilə insanlardan toyları üçün beh alındığını söyləyib: "Mənim nə instaqramım, nə feysbukum var. Heç bir sosial şəbəkədə yoxam. Dostlarımın israrı ilə ancaq vatsap açmışam. Amma görürəm ki, adımdan səhifələr açılır. Bununla bağlı işlər görülür. Bir dəfə başıma belə bir iş gəlib. Mənim prodüserim olduğunu deyib və toyun behini həmin adamdan alıb. Deyir indi, o adamın nömrəsi filan yoxdur, bağlayıb. Mənə tarix deyir, cavab verirəm ki, həmin gün başqa toydayam. Belə şeylər var, insanları aldadırlar. Bilsinlər ki, mənim heç bir sosial media hesabım yoxdur".



# "Aygün Kazımova bunu tək başına bacarıb"

***Prodüser, aparıcı Tarix Əliyev Xalq artisti Aygün Kazımova haqda bir sıra maraqlı fikirlər səsləndirib.***

Axşam.az xəbər verir ki, o, Pop kraliçanın illər öncə Amerikada reallaşdırdığı dünyaca məşhur reper Snup Dols layihəsindən söz açıb. O, Ermənistanın öz dövlət reklamı üçün Snup Doqu 6 milyon dollar qarşılığında dəvət etmək istədiklərini, amma bunu bacarmadıqlarını bildirib: "Aygün Kazımova isə bunu tək başına bacarıb".

Verilişdə qonaq olan Əməkdar artistlər Qoçaq Əsgərov və Gülüstan Əliyeva da Aygün Kazımova müasir estradanın zirvəsində olduğunu bildiriblər.

# "Ağzımı açdırmayın, çox şey danışa bilərəm" - Xatirə İslam



***Müğənni Xatirə İslam yeni fotoları ilə müzakirələrə səbəb olub.***

Axşam.az xəbır verir ki, sənətçi qatıldığı verilişlərdən birinə qara transparan korset geyinib. Xatirənin sinə dekoltesi və artıq çəkisi müzakirələrə səbəb olub.

Xatirə fotolarına "Bəzən efirdə reklam arası elə problemlər yaşanır ki, cavab verməmək də, verməmək də olmur. Məni yalnız sığal çəkərək susdurmaq olar, səs qaldırmaqla deyil. Mən yalnız faktlara inanıram, hipokrat andı içib insanları yola verən həkimlərə deyil. Mənim ağzımı açdırmayaq, məncə, çox şey danışa bilərəm" sözlərini yazıb.

# Oksana tələbə oldu



***Aktrisa Oksana Rəsulova universitetə qəbul olub.***

Bu, haqda sənətçi özü paylaşım edib. O, tələbə biletinim görüntüsünü yayımlayıb. Oksana bildirib ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Teatr sənəti" fakültəsində təhsil alır.

Qeyd edək ki, Oksana eyni zamanda tibb təhsili alıb.

# Gülüstan Əliyeva canlı efirdə kövrəldi



***Əməkdar artist Gülüstan Əliyeva "Tarixin bir günü" verilişində göz yaşlarına boğulub.***

Sənətçi 1994-cü ildə Suqovuşanda şəhid olan qardaşı Azadı xatırlayaraq kövrəlib: "İndi qürur və milli qeyrət hissimiz var. Suqovuşanda mənim qardaşım da şəhid olub. Çox sevinirəm ki, bu şəhidlər qalib ölkənin şəhidləri oldular. Birinci Qarabağ müharibəsində 30 mindən çox bizim igidimiz şəhid oldu, amma qalib ola bilmədik. Amma bu torpaqları bizə qaytararaq şəhid olanlar qalib ölkənin şəhididirlər". Qeyd edək ki, Gülüstan Əliyevanın həyat yoldaşı Zahid Əhmədov da şəhid olub. Onun bu nikahdan bir oğul övladı var.




## "İqlim dəyişikliyi problemlərini dar düşüncələrlə həll etmək olmaz" - Nazir

***"İqlim dəyişikliyinin yaratdığı problemləri sərhədlər, dar düşüncələr, dar maraqlar çərçivəsində həll etmək olmaz. Biz bir yerdə işləməli, açıq və dürüst dialoqda iştirak etməliyik. Sessiya COP29-da uğurlu danışıqların aparılması üçün təşkil olunub. Gündəlikdə duran məsələlərin əhəmiyyətini nəzərə alaraq biz mümkün qədər onları əvvəlcədən razılaşdırmalıyıq".***

"Unikal" xəbər verir ki, bunu Heydər Əliyev Mərkəzində COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda keçirilən PRE-COP29 açılış mərasimində deyib.

"İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) COP29 Sədrliyinin əsas prioritet istiqamətidir. Məqsədimiz odur ki, fəaliyyətlərə və inkişaf edən ölkələrə təkan verək və problemin mahiyyətini hər kəsə çatdıraq. Biz mümkün elementlər üzrə dəyişiklikləri görməliyik. Diqqəti təməlin qoyulmasına ciddi yönəltməliyik ki, digər məsələlər üzrə də müzakirələr müvəffəqiyyətli keçsin.

Eyni zamanda, məsuliyyətimizi ciddi qəbul etməli, müddətləri nəzərə almalı və həllər ortaya qoymalıyıq. Məqsədlərə nail olunmasında şəffaflığı, əlçatanlığı, ədaləti təmin etməliyik. Paris Sazişinin 6-cı maddəsi üzrə işləri tamamlamaq istəyirik. Bu, maliyyə və texniki resursları səfərbər etmək üçün çox vacibdir. Çünki bu, iddialarımızı irəli aparacaq və karbon bazarlarının yaradılması ilə əlaqədar daha ciddi nailiyyətlər ortaya qoyacaq.

Hazırda niyyətləri konkret nəticələrə çevirməli olduğumuzu düşünürük. Biz körpülər yaradırıq, lakin tələb olunan daha böyükdür", - deyə nazir bildirib.

## Daxili Qoşunların hərbçilərinin maaşları ilə bağlı yeni qərar

***"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişiklik edilib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

# Məmur şirkətlərinin saxtakarlıqla qazandığı milyonların şok pərdəarxası

## Həftənin sualı: rəsmi qurum "halal işarəsi yalandır" deyir, bəs onu məhsulların üzərinə kimlər və hansı haqla yapışdırırlar?



***Azərbaycanda marketlərdə satılan məhsulların üzərindəki "Halal" işarəsinin heç bir hüquqi və texniki əsası yoxdur. Bunu Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTANDART) Baş direktoru İlham Bayramov Bakıda keçirilən Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) deyib.***

"Bu günə kimi əsas sertifikatlaşdırma predmeti ət və süd məhsulları olub. Bu gün marketlərdə halal adı ilə satılan ət və süd məhsullarının üzərindəki "halal" işarəsinin heç bir hüquqi və texniki əsası yoxdur. Məhsulların üzərinə halal işarəsi qoymaq o demək deyil ki, bu məhsul İslam Ölkələrinin Standartlaşdırma və Metrologiya təşkilatının (SMIIC) standartlarına cavab verir" - deyə o əlavə edib.

Azpolitika.info saytı isə haqlı olaraq vurğulayır ki, bunu deyən Azərbaycanın rəsmi dövlət orqanı tərəfindən yaradılmış publik orqanın başında duran şəxsdir. Yəni, bir növ rəsmən etiraf edilir ki, mağazada "halal" adı ilə satılan məhsullar heç də halal-filan deyil! Bəs, əgər belədirsə, bu məhsullar mağazalara necə yol tapır və onların üzərinə "halal" yazılmasına niyə icazə verilir? Bu qurum kimdən kimə şikayət edir?

Rəsmən Azərbaycanda "halal qida" məhsullarının sertifikatlaşdırılmasını Akkreditasiya mərkəzində akkreditasiya olunan qurum - "AzeSERT Halal" MMC həyata keçirir. Yəni, "halal" adı ilə məhsul buraxanlar bu təşkilatdan "halallıq" almalıdır. Bu da həmin müssisədə monitorinq, yoxlama aparılması, məhsulların "halal" standartına uyğunlaşdırılmasının təmin edilməsi və s. kimi uzun prosedurdan sonra mümkündür. Bəs reallıqda necədir? Kim təminat verir ki, həmin "halal" sertifikat halal yolla alınır? Yaxud, hətta sertifikat verilən an hər şey standarta uyğundursa, sonrakı dövrdə bu standartlar qorunurmu? Kim bunu yoxlayır və gündəlik monitorinq aparır? Axı bunlar gündəlik istehsal olunan ərzaq məhsullarıdır və kimsə bu müəssisələrə kamera yerləşdirib, bütün istehsal prosesinə onlayn qaydada nəzarət etmir.

Bir halda ki, hətta rəsmən "halal qida" sertifikatı almış müəssisələrin belə məhsulunun "halal" standartlarına tam uyğun olmasını təmin etmək praktiki olaraq mümkünsüzdür, o zaman bu "halal-haram" məsələsini məhsulların üzərindən birdəfəlik yığışdırmaq doğru olmazdımı? Zatən buna tam nəzarət mexanizmi demək olar yoxdur və təcrübə göstərir ki, min dəfələrlə "halal" adı altında nəinki dini, hətta adi gigiyenik qaydalara uyğun gəlməyən zir-zibil satılır. O zaman bu cür etiketləri, eləcə də satış nöqtələrinə belə malları qəbul etməyi və satmağı qadağan etmək olmazmı?

Azərbaycan da daxil olmaqla, əksər müsəlman ölkələrində tarix boyu dinin siyasi alətə, biznes, gəlir mənbəyinə çevrildiyini xüsusi qeyd etməyə ehtiyac yoxdur. Təəssüf ki, dini din xadimlərindən tutmuş siyasətçilərə qədər imkanı çatan hər kəs istismar etməklə məşğuldur və bu sırada adını "biznesmen" qoyan işbazlar da öz "layiqli" yerlərini tutur.

Digər tərəfdən, nisbətən orta və iri müəssisələrin bir çoxunun əsası haram pullarla qoyulub. Onların çoxunun əsl sahibi hansısa məmur, nazir və digər vəzifə sahibləridir, buraya yatırdıqları pul, kapital halal deyil. Elə isə ümumilikdə hansı "halallıqdan" danışmaq olar?

Onu da deyək ki, AZSTANDART-ın Baş direktoru İlham Bayramovun məlum açıqlamasının ardından ortaya başqa ilginc nüanslar da çıxıb. Məsələn, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, Azərbaycanda illər boyu halal sertifikat böyük pul müqabilində verilib: "Yerli şirkətlər öz məhsullarını müsəlman ölkələrinin bazarlarına çıxarmaqdan ötrü böyük pullar xərcləməyə məcbur olublar. Burada Qafqaz Müsəlmanları İdarəsi, yerli "MMC"lər, eləcə də xaricdən gələn və halal sertifikatlar verən şirkətlər "fəaliyyət" göstəriblər. Azad İstehlakçılar Birliyi olaraq biz 6 il öncə pul amilinin yığışdırılması ilə bağlı məsələ qaldırmışıq. Nəticədə indiyədək 6-ya yaxın şirkətə pulsuz halal sertifikat verməyə nail olmuşuq. İndi yeni halal standart qəbul olunsa da, bizim bəzi təkliflərimiz nəzərə alınmayıb".

Ekspertin sözlərinə görə, əvvəllər pul qarşılığında verilən "halal" sertifikatların hamısı ləğv olunmalıdır: "Monitorinqlər aparılmalı, köhnə rəylər aşkar edilməli, dövlətin qanunları çərçivəsində şəffaf halal standartın verilməsi təmin olunmalıdır. Hərçənd bundan sonra verilən sertifikatların halallığına da tam əmin olmaq mümkün deyil. Bu, aidiyyatı dövlət qurumlarının sözügedən işi necə təşkil edəcəklərindən asılıdır".

Qida mütəxəssisi İlkin Şirinov isə bildirib ki, yeni halal standartın yaradıldığı bir vaxtda ortaya maraqlı sual çıxır: "Bugünədək halal adı ilə verilən sertifikatların aqibəti necə olacaq? Yaxud həmin məhsulların halallığına kimlər zəmanət verib?. Belə çıxır ki, həmin məhsulların halallığı şübhə altına düşür. Digər tərəfdən məhsuldan nümunələr götürüləcək və qatqı aşkarlanmayacaqsa, o zaman halal sertifikatı veriləcək. Bu, aydındır. Bəs zaman keçdikcə işbazların yenidən əvvəlki qaydada işləyib-işləməyəcəklərinə kim zəmanət verəcək?! Çünki işbazlar kolbasa və sosis məhsullarının ömrünü uzatmaqdan ötürü onun tərkibinə məcburi şəkildə donuz dərisi və piyi qatdıqlarını etiraf edirlər. Ona görə də bunun yoxlanılması, monitorinqinin aparılması mütəmadi xarakter almalıdır ki, bir dəfə halal sertifikat alan işbazlar yenidən öz köhnə əməlləri ilə istehlakçıları aldada bilməsinlər".

Beləliklə, əcaib vəziyyət yaranıb: illərdir məmur şirkətləri, digər müəssisələr halal işarəsi altında milyonlar qazanıblar və qəfildən məlum olub ki, bunun heç bir hüquqi, texniki əsası olmayıb! Elə isə ortaya başqa suallar da çıxır: həmin işarəni məhsulların üzərinə kimlər və hansı haqla yapışdırıblar? Məhsulun "halal" olduğuna inanıb onu alan istehlakçılara dəyən maddi və mənəvi zərəri kimlər ödəyəcəklər? Nəhayət, yeni halal standartın doğru tətbiqinə və bir neçə il sonra əslində onun da hüquqi, yaxud texniki əsasının olmadığının açıqlanmayacağına kim təminat verir?

Gördüyünüz kimi suallar çox və müxtəlifdir. Cavablar isə...

Cavablar isə həmişəki kimi havadan asılı qalıb!..

***Toğrul Əliyev***

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:45 PM Page 4



# "Yaxın Şərqdə qanlı qarşıdurmaların genişlənməsinə rəvac verən əsas güc ABŞ-dır"

## Politoloq: "Özünü müsəlman sayan ölkələr, ilk növbədə, iradə göstərib, ərazilərindəki ABŞ hərbi bazalarının fəaliyyətinə son qoymağı, torpaqlarından çıxarmağı bacarmalıdırlar"

***"İsrailin Fələstin, Livan və Suriyada müsəlmanlara qarşı törətdiyi bütün cinayətlərin arxasında duran, onu işğal və soyqırımla öz ərazilərini genişləndirməyə həvəsləndirən əsas güc, şübhəsiz ki, ABŞ-dır".***

"Unikal" xəbər verir ki, bu fikirləri Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürlü irəli sürüb. Onun sözlərinə görə, ABŞ-ın Yaxın Şərqdə - 11 müsəlman ölkəsində yerləşdirdiyi 50-yə yaxın hərbi bazasının əsas missiyası həm bu ölkələrin Qərbə xidmət edən hakimiyyətlərini, sülalə rejimlərini qorumaq, həm də İsrailin təhlükəsizliyini təmin etməkdir: "Həqiqətən, ABŞ-ın dəstəyi olmazsa, İsraili bircə gün içərisində məğlub edərlər. Hazırda 60 min nəfərdən çox amerikalı hərbçinin xidmət keçdiyi bu bazalar enerji qaynaqlarıyla zəngin və əsas nəqliyyat arteriyalarına sahib İslam coğrafiyasını nəzarətdə saxlayacaq hərbi-siyasi əməliyyatların hazırlandığı, icra və koordinasiya edildiyi əsas mərkəzlərdir. Özünü müsəlman sayan, İslam dininə xidmət etdiyini deyən ölkələr, ilk növbədə, iradə göstərib, ərazilərindəki ABŞ hərbi bazlarının fəaliyyətinə son qoymağı, torpaqlarından çıxarmağı bacarmalıdırlar. Nə qədər ki bu bazlar müsəlman ölkələrinin ərazisindədir, nə dinimizin, nə də evimizin sahibi özümüz ola biləcəyik - ya özləri ümmətimizin qanını tökəcək, ya da bizi beləcə bir-birimizə qırdıracaqlar".

E.Şükürlü qeyd edib ki, bütün günü "haqq məzhəb bizik" davası aparanlar bir dönüb ABŞ hərbi bazlarının yerləşdiyi müsəlman ölkələrin siyahısına baxsınlar və yalnız bundan sonra danışsınlar: "Bu, hələ açıq mənbələrdə - müxtəlif media qurumlarının araşdırmalarında ABŞ hərbi bazaları haqqında yer alan məlumatlardır:



1. Qətər - ABŞ-ın ən böyük və müasir texnologiyalarla təchiz edilmiş "Əbu-Udeyd" hava bazası və "Əs-Seyliyə" düşərgəsi burada yerləşir, 13 mindən çox hərbçinin xidmət keçdiyi bildirilir;

2. Bəhreyn - ABŞ-ın Yaxın Şərqdəki Hərbi Dəniz Qüvvələrinin Mərkəzi Komandanlığı və 5-ci hərbi dəniz donanması, eləcə də 3-cü ABŞ Ordusu Qərargahı burada yerləşir, "Şeyx İsa" və "Məhərrəq" bazalarında 9 min amerikalı hərbçinin xidmət keçdiyi deyilir;

3. Küveyt - Say etibarilə ən çox amerikalı hərbçi bu ölkədə yerləşib. "Əli əl-Salem", "Əhməd əl-Cabir" hava bazalarında, "Arifcan", "Vatansever" və "Buehrinq" düşərgələrində 15 mindən çox amerikalı hərbçinin xidmət keçdiyi deyilir;

4. Səudiyyə Ərəbistanı - 2022-ci ildə Ər-Riyadın yaxınlığındakı "İskan" qəsəbəsində modern hərbi təhsil missiyası adı altında 2700 amerikalı hərbçinin yerləşdirildiyi deyilir;

5. Birləşmiş Ərəb Əmirlikləri - "Əl-Zəfra" bazası və "Cəbəl Ali" limanında 5 minə qədər amerikalı hərbçinin olduğu bildirilir;

6. Misir - Qahirənin qərbində ABŞ hərbi hava bazası yerləşib, şəxsi heyətin sayı barədə məlumat verilmir, daha çox yanacaq təminatı üçün istifadə edildiyi deyilir;

7. Suriya - İŞİD-lə mübarizə adı altında son illər burada ABŞ-ın 18 hərbi bazasının və düşərgəsinin qurulduğu, 2000 amerikalı hərbçinin xidmət keçdiyi bldirilir;

8. İordaniya - "Muvaffak əl-Salti" bazasında 3 minə yaxın amerikalı hərbçinin olduğu deyilir;

9. İraq - 9 hərbi bazada 6 mindən çox amerikalı hərbçinin olduğu deyilir. "Victory", "Taci", "Habaniyyə", "Eynül-Əsəd", "Beled", Kərkükdə "K-1" və Mosuldakı "Geyyara", Ərbildəki "Ərbil" və "Hərir" bazaları amerikalıların istifadəsindədir;

10. Oman - bu ölkədə amerikalıların 600 nəfərdən çox hərbçisinin olduğu bildirilir;

11. Türkiyə - NATO üzvü olan Türkiyənin 16 nöqtəsində ABŞ Silahlı Qüvvələrinə aid hərbi bazanın oduğu və bu bazlarda 1800 (bəzi mənbələrdə 2500) nəfərə yaxın amerikalı hərbçinin olduğu deyilir. ABŞ-ın Türkiyədəki ən böyük hərbi bazası isə Adana və İzmirdə yerləşir".

**S.Əli**

# Azərbaycanla Belarus arasında müzakirələr

***Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Belarusun Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycana səfər edib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, səfər çərçivəsində qonaqlar Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində olublar:

"Belarus nümayəndə heyətinə Mühəndis Qoşunlarının əsas fəaliyyət istiqamətlərinə dair brifinq təqdim olunub. Mühəndis Qoşunları Baş İdarəsinin rəisi general-mayor Anar Kərimov qonaqlara Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilmiş ərazilərdə minaların təmizlənməsi üzrə görülən



işlər barədə məlumat verib.

Sonra qarşılıqlı mümkün əməkdaşlıq perspektivləri və bu sahədə əlaqələrin inkişaf etdirilməsi istiqamətində təkliflər müzakirə edilib. Səfərin növbəti günündə qonaqlar Mühəndis Qoşunları Baş İdarəsinin tabeliyindəki "N" hərbi hissəsində olublar. Nümayəndə heyəti mühəndis bölmələrinin silahlanmasında olan silah sursat, təchizat və texnika nümunələri, hərbi hissənin ərazisindəki mühəndis şəhərciyi ilə tanış olub."



# "Bu, regionda sülhün təmin edilməsinə böyük töhfə verir" - Deputat

***"Azərbaycanla Rusiya arasında mövcud olan münasibətlər keyfiyyət və mahiyyətcə yeni səviyyəyə qaldırılıb. Bu gün Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığın bütün sahələrini, o cümlədən siyasi, iqtisadi-ticarət, sosial, mədəniyyət, humanitar, təhsil istiqamətlərini əhatə edir".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Səbinə Salmanova deyib. Onun sözlərinə görə, iki ölkə arasındakı dostluq münasibətlərinin təməli Ulu Öndər Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən qoyulub:"1997-ci il iyulun 3-də imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edən əsas sənəddir. 2002-ci ilin yanvarında Ulu Öndər Heydər Əliyevin Rusiyaya dövlət səfəri zamanı "Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" Rusiya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qaldırdı. Ulu Öndər Heydər Əliyevin bu siyasətini davam etdirən Prezident İlham Əliyev də Rusiya ilə münasibətlərə hər zaman çox həssas yanaşıb. İki ölkə arasında yaradılmış bu cür mühit ilk öncə dövlət başçıları - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında mövcud olan qarşılıqlı etimad və dostluq münasibətlərinə əsaslanır. Dövlət başçılarının son illər mütəmadi görüşləri və qarşılıqlı səfərləri Azərbaycan-Rusiya münasibətlərinin sürətlənməsinə mühüm impuls verib".

Deputat qeyd edib ki, bu günlərdə Azərbaycan-Rusiya əlaqələrinin inkişafı ilə bağlı növbəti uğurlu addım atılıb: "Azərbaycan Prezidenti cənab İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasına qatılmaq üçün Moskvaya səfər etdi. Dövlətimizin başçısı rusiyalı həmkarı ilə görüşündə iki ölkə arasında əlaqələrin gündəliyinin kifayət qədər geniş olduğunu diqqətə çatdırdı. Bu isə onu deməyə əsas verir ki, qarşılıqlı etimad əsasında formalaşmış Azərbaycan-Rusiya münasibətləri bu gün yüksələn xətt üzrə inkişaf edir. Bir məsələni də xüsusi qeyd edim ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Hesab edirəm ki, bu çox tarixi hadisədir. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biri idi və demək olar ki, tamamilə dağıdılmışdı. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər öz evlərinə qayıdıblar. Sözsüz ki, bütün bu işləri də Azərbaycan dövləti öz maliyyəsi hesabına edib və etməkdədir".

S.Salmanova ümumilikdə hesab edir ki, hazırda Azərbaycanla Rusiya arasındakı əlaqələri daha da inkişaf etdirmək üçün ortada möhkəm siyasi iradə və əzm var: "Bu da dövlətlərimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, regionda sülhün təmin edilməsinə böyük töhfə verir".

# Prezident COP29-la bağlı memorandumu təsdiqlədi



***Azərbaycan Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, Kioto Protokolu və Paris Sazişinin Katibliyi arasında məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev müvafiq Fərman imzalayıb.

Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının müəyyən edilmiş Prezidenti (President-Designate) onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyinə bildiriş göndərməlidir.

# İlham Əliyev BRİKS sammitində iştirak edəcək

***BRİKS-in Kazanda keçirilən sammitinə MDB ölkələrinin liderləri dəvət olunub və onların hamısı iştirak edəcəklərini təsdiqləyiblər.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov brifinqdə açıqlayıb. "Biz həmçinin Afrika, Latın Amerikası, Yaxın Şərq və Cənub-Şərqi Asiyada nüfuzlu regional inteqrasiya birliklərinə sədrlik edən dövlətləri də dəvət etmişik", - o əlavə edib.

Qeyd edək ki, Rusiya lideri Vladimir Putin Kremldəki görüşdə Azərbaycan Prezidenti İlham Əliyevi şəxsən BRİKS-ə dəvət etmişdi. BRİKS sammiti oktyabrın 22-dən 24-dək Kazanda keçiriləcək. Tədbirdə ən azı 26 dövlətin başçıları da daxil olmaqla ümumilikdə 33 beynəlxalq nümayəndə heyətinin iştirakı gözlənilir.

*Ağarza Elçinoğlu*

# Vüqar Qurbanov direktoru işdən çıxardı

***Ağsu Rayon Mərkəzi Xəstəxanasının (RMX) direktoru Əli Hüseynov vəzifəsindən azad olunub.***

Bununla bağlı TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov müvafiq əmr imzalayıb.

Qeyd edək ki, Əli Abbas oğlu Hüseynov 2020-ci ilin noyabrından xəstəxananın direktoru vəzifəsində çalışırdı. O, 1991-2019-cu illərdə Ağsu RMX-da baş həkimin müavini, 2019-2020-ci illərdə isə direktorun müavini vəzifəsində işləyib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Muxtar Babayev ABŞ Prezidentinin baş müşaviri ilə görüşdü

***COP29 prezidenti Muxtar Babayev ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə baş müşaviri Con Podesta ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə COP29-un "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib.

"Muxtar Babayev "Helen" və "Milton" qasırğalarının nəticələri ilə əlaqədar baş müşavirə başsağlığı verib. Hər iki tərəf COP29-un uğurla həyata keçirilməsinə sadiq olduqlarını bir daha təsdiq ediblər", - paylaşımda bildirilib.

# Azərbaycan Ermənistana qarşı 2 dövlətlərarası arbitraj iddiası qaldırıb

***Azərbaycan Haaqa Daimi Arbitraj Məhkəməsinə Ermənistanla bağlı 2 dövlətlərarası arbitraj iddiası təqdim edib.***



"Unikal" xəbər verir ki, bu barədə beynəlxalq arbitraj eksperti Sarqis Qriqoryan açıqlayıb. "Bu işlər çərçivəsində artıq arbitraj məhkəmələri də təyin edilib. Yəni, tərəflər öz arbitrlərini təyin edib, sədri var. Artıq iki iş üzrə ilk məhkəmə iclası keçirilib. Təsdiqlənmiş qrafikə əsasən, 2027-ci ilin əvvəlində işlər yekunlaşmalıdır", - o deyib.

Sarqis Qriqoryanın sözlərinə görə, iddiaların məxfiliyi hələ də açılmayıb. Ermənistan onlar haqqında heç bir açıqlama verməyib: "Azərbaycanın hesabladığı zərər və Ermənistandan tələb olunan təzminatla bağlı məlumat hələlik məxfidir".

*Ağarza Elçinoğlu*

# Şuşada maliyyə kəşfiyyatı beynəlxalq forum keçirilib

***Türk Dövlətləri Təşkilatının (TDT) baş katibinin müavini, Təşkilatın üzv və müşahidəçi ölkələrinin maliyyə monitorinqi orqanlarının nümayəndələri və digər qonaqlar "Maliyyə kəşfiyyatı üçün yüksək texnologiyaların tətbiqi və məlumat mübadiləsi" mövzusunda beynəlxalq forumda iştirak etmək üçün Azərbaycana səfər ediblər.***

Türk xalqları arasında qardaşlıq və dostluq münasibətlərinin, eləcə də tarixi və mədəni əlaqələrin inkişaf etdirilməsi, habelə türk dövlətlərinin cinayət yolu ilə əldə edilən əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizədə əməkdaşlığının daha da genişləndirilməsi məqsədi ilə Şuşa şəhərində keçirilən forum, həm də Maliyyə Monitorinqi Xidmətinin (MMX) yaradılmasının 15 illiyinə həsr edilib.

Forumda TDT-nin üzv və müşahidəçi dövlətlərinin maliyyə kəşfiyyatı orqanları təmsil olunub. Tədbir çərçivəsində panel müzakirələr keçirilib, maliyyə kəşfiyyatı orqanlarının qarşılıqlı fəaliyyəti və qabaqcıl təcrübələrin tətbiqi haqqında fikir mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycan Respublikası Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov türk dövlətləri başçılarının ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi istiqamətində təşəbbüslərinin önəmini vurğulayıb. Qeyd edilib ki, forumun azad Şuşada keçirilməsi türk dövlətləri arasında tərəfdaşlığın inkişafı baxımından xüsusilə əlamətdardır.

TDT-nin rəsmisi Ömər Kocaman türk dünyası ölkələri arasında dərin tarixi, mədəni və sosial əlaqələri qeyd edib, münasibətlərin maliyyə cinayətləri ilə mübarizə sahəsində də gücləndirilməsinin əhəmiyyətindən danışıb.



Forumda MMX tərəfindən tətbiq olunan qabaqcıl texnologiyalar və süni zəka əsasında hazırlanmış Şübhəli Əməliyyatların Monitorinqi Sistemi (ŞƏMS) təqdim edilib. Proqram təminatı 17 moduldan ibarətdir.

"Davamlı əməkdaşlığın gələcəyi" mövzusunda müzakirələrin nəticəsi olaraq, türk dövlətlərinin maliyyə kəşfiyyatı orqanları "Şuşa Təşəbbüsü"nü yekdilliklə qəbul ediblər. "Şuşa Təşəbbüsü"ndə məqsəd türk xalqları arasında maliyyə cinayətlərinə qarşı mübarizə sahəsində əməkdaşlığı inkişaf etdirməkdir.

# Bu tarixdən Laçına müntəzəm avtobus reysi açılır

***"Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşan vətəndaşların keyfiyyətli nəqliyyat infrastrukturu və xidmətləri ilə təmin olunması məqsədilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən 13 oktyabr 2024-cü il tarixindən Laçın şəhərinə müntəzəm avtobus reysi istifadəyə veriləcək.***

"Unikal" xəbər verir ki, reyslər Bakı Beynəlxalq Avtovağzal Kompleksindən hər gün saat 08:00-da, Laçın şəhərindən Bakıya isə 16:00-da həyata keçiriləcək. Bakı-Laçın-Bakı reysi üzrə bir istiqamət üçün biletin qiyməti 16,20 manat təşkil edir. Bu reys üzrə Zəngilan rayonunun Ağalı kəndi aralıq məntəqə kimi müəyyən edilib. Bakı-Zəngilan (Ağalı) aralıq məntəqəsi üçün biletin qiyməti 13,90 manatdır. Biletləri "biletim.az" portalı üzərindən yalnız onlayn qaydada əldə etmək olar.

Qeyd edək ki, biletləri əldə edərkən işğaldan azad olunmuş ərazilərə girişlə bağlı buraxılış qaydalarına uyğun olaraq icazələrin olması mütləqdir.

# Laçın və Qubadlıda su anbarları tikiləcək

***Laçın və Qubadlıda su anbarları tikiləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da əksini tapıb.

Qeyd olunub ki, su infrastrukturu davamlı yaxşılaşdırılır. Bu istiqamətdə Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Xudafərin və Qız qalası su anbarları tikilib, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi inşa edilib, rayon və şəhər mərkəzlərində, həmçinin kənd və qəsəbələrdə içməli su təchizatı, eləcə də tullantı sularının idarə edilməsi üzrə tikinti və yenidənqurma işləri həyata keçirilib.



# İlham Əliyev Pre-COP29-un iştirakçılarına müraciət etdi

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 10-da Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransının (Pre-COP29) iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" müraciət mətnini təqdim edir: "Hörmətli nazirlər,Xanımlar və cənablar, Mən sizi Bakıda keçirilən COP-öncəsi tədbirində salamlayıram.

İqlim dəyişmələri bütün qitələrin ölkələrinə təsir edir, lakin inkişaf etməkdə olan kiçik ada dövlətləri bu təsirlərə daha həssasdır. İqlim dəyişmələri bütün dünyada insanların diyi Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir.

Qlobal iqlim fəaliyyətinə dəstək vermək əzmimiz COP29 tədbirinə ev sahibliyi etmək üçün namizədliyimizin irəli sürülməsinə gətirib çıxardı. Mən Azərbaycana verilən yekdil dəstəyi beynəlxalq ictimaiyyətin ölkəmizə olan inamının təzahürü hesab edirəm. Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək.

İxtiyarımızda bir ildən az vaxtın rət iddialı Fəaliyyət Gündəliyi hazırlayıb. Mövcud olan geosiyasi gərginlik fonunda "COP atəşkəsi çağırışı"nın aktuallığı daha da artır.

Qeyd etmək lazımdır ki, bu ilin sentyabrında Bakıda İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində mühüm irəliləyiş əldə olunub.

Bununla belə, qarşımızda duran əsas vəzifə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni



yaşayışına mənfi təsir göstərir və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində tərəqqiyə mane olur.

Burada Azərbaycan da istisna deyil. Biz hər il çaylarımızda suyun səviyyəsinin azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü görürük. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir.

Azərbaycan bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib.

Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpa olunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpa olunan enerji mənbələrinə malikdir.

Azərbaycan, həmçinin neft və qaz hasilatından əldə etdiyi gəlirləri yaşıl enerjiyə yatırır. Bu, açıq şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız yaşıl gündəliyi təşviq etmək istiqamətində addımlarımıza mane olmur.

Qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etolmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir.

COP29 Sədrliyi "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqlarını nəzərə almaq üçün hamını dinləyir.

Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənəvi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir.

Göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə müvafiq olaraq COP28, COP29 və COP30-un sədrləri qismində BƏƏ, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edildi.

Azərbaycan sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibamaliyyə məqsədi əhəmiyyətli artım tələb edir.

COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz. Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ "Şamaxı məsləhətləşmələri" iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər.

COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirməyə vaxt itirməyə haqqımız yoxdur.

Dəfələrlə vurğulandığı kimi, Bakı COP-u multilateralizm üçün həlledici sınaq olacaq. Beynəlxalq ictimaiyyətin uğursuzluğa düçar olmağa ixtiyarı yoxdur və Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə bağlı razılaşma əldə olunmalıdır. Mən COP29-da bizim ümumi uğurumuz kimi tarixə düşəcək tarixi razılaşmanın - "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm.

Burada bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına toxunmaya bilmərəm. Bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz.

Mən yaşıl dünya naminə həmrəylik ruhunda birgə fəaliyyət göstərmək üçün noyabrın 12-dən 13-dək Bakıda keçiriləcək Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində dövlət və hökumət başçılarını salamlamağa şad olaram.

Sonda sizə gələn ay Bakıda uğurlu nəticələrin əldə olunması ilə nəticələnəcək səmərəli müzakirələrin keçirilməsini arzulayıram. Sağ olun.



## İki deputat MDB PA-da vəzifə tutdular

***MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvləri - Milli Məclisin komitə sədri Arzu Nağıyev Təhlükəsizlik və yeni çağırışlarla və təhdidlərlə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə birgə komissiyanın, Müdafiə və təhlükəsizlik üzrə daimi komissiyanın, deputat Nizami Səfərov Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyanın iclaslarında iştirak ediblər.***

İclaslarda MDB PA çərçivəsində qanunvericilik tənzimləmələri üzrə əməkdaşlıq imkanları, gündəlikdə olan model qanun layihələri, model qanunlara dəyişikliklər, digər qanunvericilik tənzimləmələrinə dair tövsiyə layihələri kimi məsələlər müzakirə olunub.

Onlayn iclaslarda həmçinin təşkilati məsələlərə baxılıb, daimi komissiyaların sədrləri və sədr müavinləri seçilib, hər üç komissiyanın növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

Milli Məclisin üzvləri - Nizami Səfərov Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyanın sədri, Arzu Nağıyev MDB PA-nın Müdafiə və təhlükəsizlik üzrə daimi komissiyanın sədr müavini seçiliblər.

## "Cəbrayıl və Füzuli rayonlarında yeni yaşıllıqlar salınacaq" - Nazir müavini

***Hazırda Cəbrayıl rayonunda 30 hektar, Füzuli rayonunda isə 16,7 hektar yeni yaşıllıq sahəsinin salınması ilə bağlı torpaq işləri aparılır. Bu ilin sonunadək həmin ərazilərdə yaşıllıqların salınması nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu sözləri Laçın şəhərində keçirilən Ekoloji məsələlər üzrə işçi qrupunun iclasında qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov söyləyib.

O qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə meşəbərpa layihələrinə uyğun olaraq, Zəngilanda 85 hektar, Qubadlıda 35 hektar və Cəbrayılda 45 hektar meşə fondu sahəsində torpaq hazırlığı işləri yekunlaşıb və ilin sonunadək bu ərazilərdə də əkin və səpin işlərinin aparılması planlaşdırılır.

## Azərbaycanla Braziliya arasında memorandum imzalandı

***Azərbaycan və Braziliya Bakı ilə Belen arasında iqlim tərəfdaşlığı üzrə Anlaşma Memorandumu imzalayıb.***

"Unikal" xəbər verir ki, saziş Bakıda keçirilən Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) çərçivəsində imzalanıb.

35_27 IYUI-QARA.qxd 10/10/2024 10:46 PM Page 7





## "Qarabağın turizm potensialından sıx şəkildə istifadə olunacaq" - Deputat

***Turizm zonalarında iri müəssisələrin fəaliyyəti qadağan edilir. "Turizm haqqında" qanuna edilən dəyişikliklər II oxunuşda müzakirə edilərək plenar iclasa tövsiyə olunub.***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, yeni dəyişikliklərə əsasən, turizm və rekreasiya zonalarında iri sənaye müəssisələrin fəaliyyəti qadağan ediləcək.

"Bununla, həmin zonalarda kimya sənayesi, metallurgiya, nüvə energetikası, məişət tullantılarının zərərsizləşdirilməsi və emal müəssisələrinin fəaliyyəti qadağan olunacaq. Nazirlər Kabinetinin 2016-cı il 1 avqust tarixli qərarı ilə "Xızı-Xaçmaz", "Quba" və "Qusar" Turizm və rekreasiya zonasının sərhədləri təsdiq edilib. İşğaldan azad olunan Kəlbəcərin yüksək turizm resurslarından səmərəli istifadəsi məqsədilə "Kəlbəcər Turizm İnkişaf Konsepsiya" sənədi hazırlanıb. Kəlbəcər rayonunda 5 turizm və rekreasiya zonasının yaradılması təklif olunur. Bu o deməkdir ki, yaxın zamanlarda Qarabağ və Şərqi Zəngəzurun turizm potensialından sıx şəkildə istifadə olunacaq. Bütövlükdə, son dəyişikliklər ətraf mühitin qorunması və sağlamlıq turizmin inkişafı baxımdan vacib hesab olunur".

## Kral III Çarlz COP29-da Bakıya gələ bilməyəcək

***Böyük Britaniya kralı III Çarlz gələn ay Bakıda keçiriləcək COP29 qlobal iqlim sammitində iştirak etməyəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu qərara səbəb monarxın səhhətindəki problemlərdir. 75 yaşlı kralın xərçəng xəstəliyindən müalicə aldığı bildirilir. Diaqnoz fevral ayında qoyulub.

Qeyd edək ki, III Çarlz ətraf mühit məsələlərində fəal mövqeyi ilə tanınır. Ötən il o, Dubayda COP28 sammitinin açılışında çıxış edib.

***Ağarza Elçinoğlu***

## Eşqi Bağırov bu xanımı direktor təyin etdi

***Bakıda 132-134 nömrəli Təhsil Kompleksinə direktor təyin edilib.***





"Unikal" xəbər verir ki, bununla bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin sədri Eşqi Bağırov əmr imzalayıb.

Əmrə əsasən, bu vəzifəyə Aygün Mikayılova təyinat alıb. O, 2018-2024-cü illərdə H.Əliyev adına Müasir Təhsil Kompleksində icraçı direktor vəzifəsində çalışıb.

# "Azərbaycana qarşı belə siyasi təzyiqlər səmərəsizdir"

## Azər Badamov: "Ölkəmizə qarşı ABŞ-ın tətbiq etdiyi və indi də hökumətə göndərdiyi sanksiyalarla bağlı məsələ selektiv yanaşmaların göstəricisidir"

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, ABŞ konqresmenlərinin Azərbaycana sanksiyalar tətbiq etmək çağırışının məqsədlərindən, Ağ Evin İrəvana qarşı bu addımı atmamasından, Ermənistanın Baş naziri Nikol Paşinyanın saxta sülh ritorikasından və Avropa İttifaqının Azərbaycanla sərhəddə yerləşdirilmiş, kəşfiyyat materialları toplamaqla məşğul olan "müşahidəçiləri"nin aktivləşməsindən danışıb.***

***-Azər müəllim, məlum olduğu kimi, bəzi konqresmenlər Azərbaycana sanksiyalar tətbiq etmək üçün ABŞ hökumətinə müraciət edib. Onların bu addımı atmaqda məqsədi nədir?***

-ABŞ konqresmenlərinin Azərbaycana sanksiyaların tətbiq edilməsi



ilə bağlı müraciətinin hazırlanmasının ünvanı elə dövlət katibinin ofisidir. Sadəcə olaraq həmin ofisdə hazırlanmış mətn konqresdə oturan ermənipərəst konqresmenlərin adından gündəmə gətirilib. Bu məsələnin kökündə dayanan əsas məqsəd COP29 qabağı Azərbaycana siyasi təzyiq göstərilməsidir. Əslində, COP28 öncəsi Birləşmiş Ərəb Əmirliklərinə də ABŞ-ın siyasi təzyiqini görmüşdük. Təbii ki, ölkəmizə qarşı belə siyasi təzyiqlər səmərəsizdir. Azərbaycana qarşı ABŞ-ın tətbiq etdiyi və indi də hökumətə göndərdiyi sanksiyalarla bağlı məsələ selektiv yanaşmaların göstəricisidir. 1992-ci ildə Ermənistan torpaqlarımızı işğal edəndə ABŞ-ın sanksiyalarına məruz qalmışdıq. Amma 2001-ci ildə ABŞ Əfqanıstana hərbi qüvvələrin və yüklərin daşınması zamanı ölkəmizə tətbiq etdiyi sanksiyaları dayandırmışdı. Sonradan Əfqanıstandan qaçanda yenidən sanksiyaları aktivləşdirmişdi. Yəni, ABŞ istədiyi ölkəyə müxtəlif bəhanələrlə sanksiya tətbiq edir, istəyəndə də ləğv edir. Bu da beynəlxalq hüququn işləməməsinin açıq təzahürüdür. ABŞ yenə də yeni sanksiyalardan danışır. Sanksiyaların tətbiqi ABŞ-ın əlində siyasi alətdir. Azərbaycan qarşılıqlı hörmət və fayda əsasında beynəlxalq münasibətləri formalaşdırır. Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir. ABŞ Azərbaycana sanksiyalar tətbiq etmək hədəsindən əl çəkərək əməkdaşlığın genişləndirilməsinə üstünlük verərsə, daha çox fayda görmüş olar. Çünki, ölkəmiz ərazi və əhali sayına görə ABŞ-dan kifayət qədər balaca olsa da, beynəlxalq siyasi sistemdə özünə uyğun yerə və rola malikdir.

***-Maraq doğuran digər məsələ odur ki, İrəvan Rusiyaya sanksiyalardan yayınmaq üçün ciddi dəstək versə də, Ağ Ev buna göz yumur. Nə üçün onlarla bağlı elə fikirlər səsləndirilmir?***

-Bəli, Ermənistana gələndə Ağ Evlə Rusiyanın maraqları üst-üstə düşür. ABŞ Ukrayna ilə müharibəyə görə Rusiyaya mindən çox sanksiya tətbiq edib. O cümlədən, dünya ölkələrini də özlərinin tətbiq etdiyi sanksiyalara qoşulmağa çağırır. Məhz Avropa İttifaqı Rusiyaya qarşı sanksiyalara qoşulduğuna görə böyük iqtisadi çətinliklərlə qarşılaşıb. Macarıstana isə sanksiyalara qoşulmadığı üçün təzyiq göstərilir. Amma ticarət dövriyyəsini həndəsi silsilə ilə artıraraq Rusiyanı sanksiyalardan yayındıran Ermənistana heç bir söz deyilmir. Bu bir daha onu göstərir ki, Ermənistanla münasibətdə Qərblə Rusiyanın maraqları üst-üstə düşür. Bu da ikiüzlülük və riyakarlığın açıq təzahürüdür.

***-Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında deyib ki, Ermənistan bu ay Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır. O, razılaşdırılmış məqamlar üzrə müqaviləni imzalamağı və həll olunmamış məsələlərin müzakirəsini gələcəyə buraxmağı təklif edib. Paşinyan sülhə hazır olduqlarını desə də, onların atdıqları addımlarda bunu görmək olmur. Onların saxta sülh ritorikası hansı məqsəd güdür?***

-Paşinyanın Moskvada açıqladığı sülhlə bağlı fikirlər saxta və yalanın ifadəsidir. Ona görə ki, Paşinyan razılaşdırılmış 13 məsələ ətrafında sülh müqaviləsini hazırlamağa hazır olduğunu bildirir. Həm də qalan məsələlərin gələcəkdə müzakirə olunması üçün saxlanılmasını təklif edir. Sual olunur ki, sən əgər sülh istəyirsənsə, yerdə qalan 3 məsələni gələcəyə niyə saxlayırsan? Burada Paşinyanın hiyləgər yanaşması açıq şəkildə üzə çıxır. Yəni, Ermənistan razılaşdırılmış məsələlər ətrafında sülh müqaviləsini imzalamağa hazır olduğunu göstərməklə özünü sülhpərvər tərəf kimi nümayiş etdirməyə çalışır. Amma bilir ki, ölkəmizə qarşı ərazi iddiaları rəsmən davam etdikcə Ermənistanla sülh müqaviləsi imzalanmayacaq. Paşinyanın hərəkətləri sülh müqaviləsinin imzalanmasına yox, sülhdən uzaqlaşmasına xidmət edir.

***-Fransanın Ermənistanı silahlandırması hər zaman müzakirə olunan məsələdir. Eyni zamanda, son günlər Avropa İttifaqının Azərbaycanla sərhəddə yerləşdirilmiş və kəşfiyyat materialları toplamaqla məşğul olan "müşahidəçiləri" aktivləşiblər. Belə ki, Aİ missiyasının üzvü və erməni hərbçilərin müşahidə cihazları ilə Azərbaycan ərazilərini müşahidə etməsi əks olunan kadrlar yayılmışdı. Bir çoxları bunu Aİ və Ermənistanın Azərbaycana qarşı təxribat hazırlığı kimi qiymətləndirmişdi. Onların müşahidə aparmasının artması nədən xəbər verir?***

-Avropa İttifaqının Ermənistanda müşahidə missiyası yerləşdirməsini və bu missiyanı genişləndirərək Kanadadan nümayəndələr qoşmasının yeni təxribatlara hazırlıq prosesi olduğunu hesab edirəm. Aİ-nin müşahidə missiyasının işi sərhədimizə gələrək binoklla ərazilərimizi müşahidə etmək və məlumat yığmaqdan ibarətdir. Əslində Aİ missiyası Ermənistanın təxribatları üçün ssenarilər hazırlayır. Bu günlərdə sərhədimizdə xaç işarəli bayrağın qaldırılması da Ermənistanın çirkin niyyətlərdən uzaqlaşmadığını və yenidən revanşizmə hazırlaşdığının nümayişidir. ABŞ, Fransa, Hindistan və digərləri Ermənistanı sürətlə silahlandırır. Ermənistan silahlandıqca və havadarlardan dəstək artdıqca, Paşinyanın danışıq tərzi dəyişilir və sərhədimizdə uzunmüddətli fasilədən sonra atəş səsləri eşidilir. Son vaxtlar Azərbaycana qarşı sərhəddə təxribatların artmasının kökündə də binoklluların cızdığı planlar və Qərbin tapşırıqları dayanır. Qərb Cənubi Qafqazda yenidən gərginliyin yaranmasında maraqlıdır. Ona görə oda barıt tökməyə çalışır. Amma Ermənistan hakimiyyəti başa düşmür ki, Qərbin planları Ermənistanı hərbi poliqona çevirir və bir gün ermənilər yeni faciə ilə qarşılaşa bilərlər.

***Anar Kəlbiyev***

# Cahangir Əsgərovun ailə biznesi ətrafında ilginc şübhə

## AZAL-ın sabiq prezidentinin Londondakı şirkətlərinin adları niyə dəyişdirilir?

***Bir müddət öncə məlumat yayıldı ki, "Azərbaycan Hava yolları" QSC-nin sabiq prezidenti Cahangir Əsgərovun ailəsi Londondakı şirkətləri ilə bağlı ad dəyişiklikləri aparıblar. Medianın yazdıqlarından belə aydın olurdu ki, bu dəyişikliklər kifayət qədər şübhəli təsir bağışlayır.***

Məsələ orasındadır ki, 31 milyon funt sterlinqdən (75 milyon manat) artıq aktivləri olan "Gazelli House Limited" şirkəti adını dəyişib.

Yayılan xəbərdən aydın olurdu ki, 2019-cu ildə "Soroka Limited" adı ilə qeydiyyatdan keçmiş şirkət bundan sonra "Gazelli International Limited" adı ilə fəaliyyətini davam etdirəcək. Şirkətin təsisçisi - Cahangir Əsgərovun qızı Məlahət Əsgərovanın Britaniya Şirkətlər Evinə müraciətinə əsasən bu il fevralın 9-da "Gazelli House Limited"in adı "Mrcr Art Limited" olaraq rəsmiləşdirilib.



Halbuki elə bu ilin yanvarında Məlahət Əsgərova Mrcr Art Limited" adı ilə Londonda başqa bir şirkət təsis etmişdi. Həmin şirkətin adı isə "Gazelli House Limited" olaraq dəyişdirilmişdi.

Bəziləri şirkətlərin adının dəyişməsini Cahangir Əsgərovun iz itirmək cəhdi kimi dəyərləndirir.

Bəs belə bir cəhdə sabiq yüksək çinli məmur, yaxud onun ailəsi niyə ehtiyac duya bilərdi?

Məsələ burasındadır ki, son bir neçə ildə İngiltərə mətbuatında Londonda yaşayan və yaxud burada biznesi olan azərbaycanlı məmurların ailə üzvlərinin adlarına tez-tez rast gəlinir. Hələ 2017-ci ildə İngiltərə mətbuatının diqqət mərkəzinə o dövrdə kənd təsərrüfatı naziri olan Heydər Əsədovun oğlu Asif Əsədzadə gəlmişdi. Azərbaycana məxsus dövlət nömrə nişanlı bahalı avtomobili ilə İngiltərə paytaxtında hərəkət edən maşının videogörüntüləri də vardı. Sonralar keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov, mərhum vergilər naziri Fazil Məmmədov və digərlərinin Londonda əmlak və biznes sahibinə çevrilən yaxınları barədə məlumatlar dərc edildi. Hətta bəzi azərbaycanlılar barədə korrupsiya, çirkli pullar şübhəsi Britaniya məhkəmələrinədək gedib çıxdı. Məsələn, Beynəlxalq Bankın sabiq və hazırda həbsdə olan rəhbəri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ingilis mətbuatının az qala "ulduzu"na çevrilib. Hətta İngiltərədə qüvvəyə minmiş "İzahedilməz Sərvət Sərəncamı"nın ilk olaraq xanım Hacıyevaya tətbiq olunması da təsadüfi deyil. Yaxud deputat Cavanşir Feyziyevlə bağlı ingilis mediasında yazılanlar və Britaniya məhkəməsinin müsadirə qərarları hamıya yaxşı məlumdur.

Hələ 2020-ci ildə nüfuzlu "Transparency International UK" bir hesabat yaymışdı. Həmin hesabata görə, Londonda elit evlərin 87 faizini əcnəbilər alıblar və əldə edilmiş mənzillərin 42 faizi adı öz ölkələrində korrupsiyaya bulaşmış alıcılara məxsusdur. Bildirilirdi ki, öz ölkələrindən pul qaçıran məmur-oliqarxlar Londonda özlərini ərəb şeyxlərindən də varlı göstərməyə çalışırlar. Bütün bunlar yerli hökumətin diqqətini çəkib və sonda "İzahedilməz Sərvət Sərəncamı" adlı qanunverici sənəd qəbul edilib.

Həmin sənədin qüvvəyə minməsi ilə müxtəlif ölkələrdə vəzifə sahibi olmuş, yaxud hələ də vəzifə sahibi olan şəxslərin ailə üzvlərinin Londondakı daşınmaz əmlaklarının və bizneslərinin başı üzərində "qara buludlar" dolaşmaqdadır.

"İzahedilməz Sərvət Sərəncamı" çərçivəsində araşdırmaların aramsız şəkildə davam etdiyi və bu araşdırma çərçivəsində Britaniya paytaxtında mal-mülk, şirkət sahibi olan daha bir neçə azərbaycanlının da Zamirə Hacıyeva, yaxud Cavanşir Feyziyevlə eyni aqibəti yaşaya biləcəyinə dair ehtimallar gündəmdən düşmür. Müxtəlif ölkələrdən olan deputatların, keçmiş və indiki məmurların, dövlət müəssisələri rəhbərlərinin, həmçinin onların köməkçilərinin və ailə üzvlərinin istənilən an İngiltərə qanunlarının qarşısında cavabdeh şəxslərə çevrilməsi riski var.

Bütün bunlar fonunda AZAL-ın sabiq rəhbəri Cahangir Əsgərovun İngiltərə paytaxtındakı şirkətlərinin müəmmalı, şübhəli ad dəyişiklikləri təəccüb doğurmaya da bilər. Ola bilsin, Əsgərov və ailə üzvləri haqqında danışdığımız "İzahedilməz Sərvət Sərəncamı"nın təsir dairəsinə düşə biləcəklərindən çəkinirlər və məlum ad dəyişiklikləri ilə iz itirməyə ümid bəsləyirlər.

Onu da deyək ki, bir müddət əvvəl "Bakı" Hüquq Mərkəzinin rəhbəri Natiq Ələsgərov yerli KİV-ə açıqlamasında bildirmişdi ki, 2018-ci ildə Britaniyada əvvəl "İzaholunmaz Sərvət Sərəncamı"nın tətbiqinə razılıq verilməsi ingilis hiyləgərliyinin bariz nümunəsidir: "On illərlə dünyanın ən varlı adamlarının İngiltərəyə yerləşməsinə, özlərinə dəbdəbəli şərait qurmalarına imkan verdilər, hər cür şərait yaratdılar ki, rahat şəkildə məskunlaşsınlar, sağa-sola pul xərcləyə bilsinlər. Özləri də kənardan bu adamları müşahidə etdilər və kimin harada nəyi var sakitcə hesabatını apardılar. Dünya iqtisadiyyatı qlobal böhrana girəndə isə pulların geriyə və yaxud da digər ölkələrə axıdılması ehtimalı böyüdü. Buna seyrçi mövqedə dayanıb baxmaq olmazdı, ingilislər də baxmadılar. Qanun qəbul edib, ölkəyə gətirilən olduqca böyük pulların tam olmasa da, yarıdan çoxuna əl qoya bildilər. İngiltərəyə isə milyardlar axıb. Hazırda proses davam edir. Azərbaycandan İngiltərəyə qaçırılan pullar haqda arasıra mətbuatda yazılar dərc olunur".

Ekspert əlavə eləmişdi ki, bu səbəbsiz deyil: Azərbaycandan Londona çox böyük pullar axıdılıb. Və hələ çox adlar çıxacaq...

***Sənan Mirzə***

# Əhmədlə bağlı son qərar verildi - Məcburi müalicə olunacaq




***Ailə üzvlərini qətlə yetirməkdə təqsirləndirilən Əhməd Əhmədova hökm oxunub.***

"Unikal"ın məlumatına görə, Səbinə Məmmədzadənin sədrlik etdiyi məhkəmə tərkibi 25 yaşlı Əhmədin cinayəti anlaqsız vəziyyətdə törətməsi ilə bağlı ekspert rəyini əsaslı hesab edib.

Prokuror da Əhmədin anlaqsız olduğuna görə cəzadan azad edilməsini, ixtisaslaşmış xəstəxanada məcburi müalicəsini tələb edib.

Əhməd son sözündə heç nə deməyib. Deyəcək sözünün olmadığını bildirib.

Yekun qərarla, Əhməd cəzadan azad edilib. Onun barəsində Maştağa qəsəbəsində yerləşən ixtisaslaşmış psixatriya xəstəxanasında məcburi müalicə tətbiq ediləcək.

Xatırladaq ki, bu ilin fevral ayının 13-də 1999-cu il təvəllüdlü Əhməd Əhmədov aralarında yaranmış mübahisə zamanı ata, ana və azyaşlı qardaşını, bundan əvvəl başqa bir ünvanda isə bacısı - 1997-ci il təvəllüdlü Elmira Əhmədovanı və onun azyaşlı qızını qətlə yetirməkdə şübhəli bilinib. O şübhəli şəxs qismində saxlanılıb və fevralın 14-də barəsində həbs qətimkan tədbiri seçilib.

Daha sonra o, Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasına yerləşdirilib.

Ona qarşı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) maddələri ittiham irəli sürülüb.

# Laçında Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib



***Laçın şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilir.***

"Unikal" xəbər verir ki, iclasa sədrliyi ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov edir.

İclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının və Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak edirlər.

İclasda İşçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən ekoloji tələblərin icra vəziyyəti, filiz, qeyri-filiz, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti və onlardan istifadə perspektivləri, torpaqların elektron kadastr uçotu işlərinin nəticələri, Laçın hava limanının inşası zamanı tikinti altına düşən meşə ərazilərinin ilə əvəzlənmiş sahədə yeni yaşıllıq massivinin salınması işləri barədə iclas iştirakçılarına məlumat verilib, işğaldan azad edilmiş bölgələrdə bərk məişət tullantıları ilə əlaqədar vəziyyətin yaxşılaşdırılması üçün müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilir.

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:46 PM Page 9



# Dövlət sərhədini pozmağa cəhd göstərən 6 əcnəbi saxlanılıb



***Dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi, qeyri-leqal miqrasiyaya qarşı mübarizə sahəsində davam edən sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində dövlət sərhədini pozmağa cəhd göstərən 6 nəfər sərhəd pozucusu saxlanılıb.***

"Unikal" DSX-ya istinadən xəbər verir ki, "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində oktyabr ayının 2-də 1 nəfər İran İslam Respublikası, oktyabrın 4-də 2 nəfər Əlcəzair Xalq Demokratik Respublikası, oktyabrın 3-də "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində 2 nəfər Pakistan İslam Respublikası vətəndaşı və oktyabrın 7-də "Naxçıvan" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində 1 nəfər Suriya Ərəb Respublikası vətəndaşının dövlət sərhədini pozma cəhdinin qarşısı sərhədçilər tərəfindən uğurla alınıb.

Araşdırma tədbirləri nəticəsində saxlanılan şəxslərin dövlət sərhədini pozaraq qeyri-qanuni yolla Avropa ölkələrinə miqrasiya etmək niyyətində olduqları müəyyən edilib.

Faktlar üzrə qeyri-leqal miqrasiya kanalının aşkarlanması istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Xocalı şəhərinə videoqrafların infoturu təşkil olunub

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində Xocalı şəhərinə infotur təşkil edib. İnfotur Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə keçirilib.***

"Unikal" xəbər verir ki, infoturun iştirakçısı olan videoqraflara Prezident İlham Əliyevin tapşırığı ilə Xocalıda aparılan bərpa-quruculuq işləri, Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə məlumat verilib. Bildirilib ki, indiyədək Xocalıda 46 ailənin (179 nəfərin) məskunlaşması təmin edilib.

İnfotur iştirakçıları Xocalı şəhərində yeni salınan yaşayış məhəlləsində Böyük Qayıdış prosesi çərçivəsində doğma yurda qayıdan məcburi köçkün ailələri ilə görüşüb, sakinlərin fikir və rəylərini öyrənib, video çəkilişlər aparıblar.

Sonda iştirakçılar səfərin məhsuldar və faydalı olduğunu qeyd ediblər. Böyük Qayıdışa dair Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində işğaldan azad edilmiş ərazilərə infoturlar davam etdiriləcəkdir.

# Hərbi Prokurorluq Müdafiə Nazirliyi ilə birlikdə tədbir keçirib



***Ümummilli Lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları Xocavənddə rayon rəhbərliyinin iştirakı ilə birgə tədbir keçiriblər.***

Hərbi Prokurorluqdan "Unikal"a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Füzuli hərbi prokuroru, ədliyyə polkovniki Elçin Hacıyev, hərbi prokurorun böyük köməkçisi, baş ədliyyə müşaviri Firad Əliyev və başqaları çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə ölkəmizdə həyata keçirilən köklü islahatlardan, müxtəlif sahələrdə qazanılan uğurlardan, o cümlədən Silahlı Qüvvələrimizin formalaşdırılması, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılması və etibarlı qorunmasından bəhs ediblər. Əldə edilən uğurlarda Birinci vitse-prezident Mehriban Əliyevanın göstərdiyi dəstək və xalq-dövlət birliyi xüsusi qeyd edilib. Həmçinin tədbirdə Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə əməkdaşlığı vurğulanıb.

Tədbir başa çatandan sonra ağaclar əkilib.

# Abel Məhərrəmovun bitmək bilməyən torpaq qalmaqalı

## Keçmiş rektor-deputatın villa aludəçiliyi ona baha başa gələ bilər

***Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, Milli Məclisin üçüncü və dördüncü çağırış deputatı olmuş Abel Məhərrəmovun adı hallanan torpaq qalmaqalı davam edir. Bu yaxınlarda məlum olub ki, sözügedən qalmaqal indi də Ali Məhkəmədə araşdırılacaq.***

"Qaynarinfo" xəbər verib ki, Abel Məhərrəmovu ona məxsus torpaq sahəsini zəbt etməkdə ittiham edən Qarabağ qazisi, ehtiyatda olan polkovnik-leytenant Nazim Əmirov həmin işlə bağlı Ali Məhkəməyə kassasiya şikayəti verib.



Əldə edilən məlumata görə, Əhməd Nurməmmədov iş üzrə hakim təyin edilib. Şikayətə baxılma müddəti hələ ki, müəyyənləşməyib.

Məlumat üçün deyək ki, sözügedən qalmaqal birinci instasiya kimi Xızı Rayon Məhkəməsində araşdırılıb. Prosesdə Nazim Əmirov iş üzrə iddiaçı, Abel Məhərrəmov və xanımı Rəhimə Mahmudova isə cavabdeh qismində iştirak edib. Məhkəmə polkovnik-leytenantın iddiasını təmin etməyib. Sumqayıt Apellyasiya Məhkəməsi də birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Nazim Əmirov iddiasında bildirib ki, Abel Məhərrəmov Altıağac qəsəbəsində ona məxsus torpaq sahəsini zəbt edərək xanımı Rəhimə Mahmudovanın adına rəsmiləşdirib. Keçmiş rektor həmin ərazidə özünə dəbdəbəli villa tikib.

Nazim Əmirov bir neçə dəfə Abel Məhərrəmova tikilini sökməyi və onun ərazisindən çıxmaq barədə müraciət etsə də nəticəsi olmayıb.

Şikayətçi hesab edir ki, məhkəmələrin məsələyə ədalətsiz yanaşması Abel Məhərrəmovun onlara təsir göstərməsi ilə əlaqədardır: "Məhkəmələrə bütün sənədlər təqdim olunub. Bu sənədlər dövlət sənədləridir. Saxta deyil, ekspertiza keçirilib. Torpaq sahəsinin mənə məxsus olması tam sübuta yetirilib. Buna baxmayaraq, məhkəmə mənim iddiamı təmin etməyib. Hesab edirəm ki, Abel Məhərrəmov nüfuzundan istifadə edərək məhkəmələrə təsir edir. Əks halda məhkəmələr belə açıq-aydın şəkildə ədalətsiz qərar qəbul etməzdilər" deyə o bildirib.

Polkovnik-leytenant inanır ki, müraciəti nəzərə alınacaq və ona qarşı həyata keçirilən qanunsuzluqlara son qoyulacaq.

Maraqlıdır ki, sabiq rektorun özü sözügedən qalmaqala hələ ki, münasibət bildirməyib.

Xatırladaq ki, "Unikal".org 19 il Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışandan sonra 2018-ci ildə bu postdan kənarlaşdırılan Məhərrəmovun Azərbaycandakı dəyəri milyonlarla ölçülən mülkləri ilə bağlı maraqlı araşdırma aparmışdı. Həmin araşdırma nəticəsində məlum olmuşdu ki, eks-rektorun təkcə Bakıda yaşaması üçün tikdirdiyi villaların sayı 6-dır. Onun Binəqədidə, Varovski deyilən ərazidə iki villasının, Quba rayonunda 1, Xızı rayonunda 1, Nabranda 1, Şüvəlan və Mərdəkan qəsəbələrinin hər birində də 1 mülkünün olduğu aydınlaşmışdı.

Eyni zamanda ortaya çıxmışdı ki, Milli Elmlər Akademiyası yaxınlığında yerləşən milyonerlər məhəlləsində də 1 villası olan sabiq rektor və keçmiş deputat paytaxtdakı ən bahalı yerlərdə tikilmiş hündürmərtəbəli binalarda mənzillərə də sahibdir. Onun təkcə N.Nərimanov heykəlinin yanındakı mənzilinin dəyəri 1 milyon manatdan yüksək qiymətləndirilirdi.

Abel müəllimin villa aludəçiliyi isə zaman-zaman onun adı ətrafında müxtəlif qalmaqalların yaşanması ilə nəticələnib. Məsələn, üç il öncə Bakı Dövlət Universitetinin təsərrüfat şöbəsinin işçisi olmuş İsmixan Mirzəyev rektorun müşaviri Mirzə Mirzəyevi bıçaqlamışdı. Bununla bağlı məhkəmə prosesində isə o, sensasion açıqlamalar vermişdi. Təqsirləndirilən Mirzəyev bildirmişdi ki, 2021-ci ilin iyulunda baş vermiş bıçaqlanma hadisəsi ərəfəsində BDU-nun keçmiş rektoru, sabiq deputat Abel Məhərrəmovla məhkəmə çəkişməsində olub. İddia edib ki, Məhərrəmovun Bakıda tikdirdiyi villada, Nabranda bağ evində, eləcə də ona məxsus böyük obyektlərdə, o cümlədən "Mona Liza" şadlıq sarayında tikinti, mebellərin quraşdırılması kimi işləri görüblər. Lakin sabiq rektor-deputat onun rəhbərlik etdiyi briqadanın nə zəhmət haqqını, nə də avadanlıqların pulunu ödəyib. Söhbət ümumilikdə 811 min manatdan gedir.

İ.Mirzəyevin sözlərinə görə, briqadaya daxil olan ustalar, avadanlıqları satan adamlar da ondan pullarını tələb edirlər.

Əcəb işdir: belə məlum olur ki, A.Məhərrəmovun villa, mülk aludəçiliyi elə bir həddə çatıb ki, o, başqa birinin torpağını zəbt edərək orada imarət ucaltmaqdan da çəkinmir, villalarında, mülklərində halal zəhməti ilə dolanmağa çalışan insanları pulsuz işlətməkdən də...

Və bu gedişlə biz sabiq rektor-deputatın hansı pullarla tikildiyi əslində hər birimizə gün kimi aydın olan milyonluq mal-mülkləri ilə bağlı hələ çox qalmaqalın şahidinə çevriləcəyik. Düzdür, Məhərrəmovun hələ ki, müəyyən vasitələrlə bu qalmaqalları məhkəmələrdə öz xeyrinə həll etdiyinə dair iddialar var, lakin günlərin bir günü hüquq müstəvisində ədalət zəfər çalacağı təqdirdə Abel müəllimin ciddi başağrısı yaşayacağı sürpriz olmayacaq...

***Toğrul Əliyev***

35_27 IYUI-QARA.qxd 10/10/2024 10:46 PM Page 10



# Azərbaycandakı özəl liseylərin qandonduran qiymətləri!



***Təhsil haqları növbəti dəfə bahalaşdırıldı; müəyyənləşdirilən qiymətlərlə verilən təhsilin keyfiyyəti arasında uçurum yaranıb, işin içində inhisarçılıq da var! - Sensasion iddialar...***

Azərbaycanda yeni tədris ilindən etibarən özəl liseylərdə təhsil haqqı yenidən bahalaşıb. Bu barədə Sputnik Azərbaycan-a valideynlər məlumat verib.

İki övladı Bakı Atatürk Liseyində təhsil alan paytaxt sakini Elnur Məhərrəmli bildirib ki, Bakı Atatürk Liseyi Türk Dünyası Araşdırmalar Vəqfinin liseyi olaraq türkçülüyün, turançılığın təbliğinə xidmət etsə də, təhsil haqlarını hər il bahalaşdırır. Sitat: "Bakı Atatürk Liseyi rəsmi saytında məktəblərinin heç bir ticarət məqsədi güdmədiyini yazsa da, təhsil haqqını hər il bahalaşdırır. Bu ildən liseydə illik təhsil haqqı 4500 manat olub. Halbuki, həmin liseydə təhsilə 2018-ci ildə hər uşaq üçün illik 1000 manat təhsil haqqı ilə başlamışıq. IX sinifdə təhsilhaqqı 2500 manata, X sinifdə 2750 manata qalxdı. Bu ildən isə hər uşaq üçün illik 4500 manat təhsil haqqı tələb edirlər".

Valideyn məcbur olub övladlarını başqa özəl məktəbə yerləşdirdiyini söyləyib.

Bakı Atatürk Liseyindən də təhsil haqlarının artırıldığını təsdiqləyiblər. Bildirililib ki, liseyin 28 May filialı kiçik olduğundan, orada təhsil haqqı 2500 manatda saxlanılıb. Nərimanov filialı isə böyük olduğundan, təhsil haqqı artırılaraq 4500 manat olub. Liseydən təhsil haqqının artırılmasının liseyin öz daxili qərarı olduğunu, səbəbinin açıqlanmadığını söylədilər.

Bu tədris ilindən Xəzər Universitetinin Dünya Məktəbində də təhsil haqları artırılıb. Məktəbdən bildiriblər ki, hazırda Azərbaycan və rus bölmələrində ibtidai siniflər üçün təhsilhaqqı 10 min manatdır.

V-XI siniflər üçün isə bu məbləğ 10500 manat təşkil edir. Məktəbin ingilis dili bölməsində isə illik təhsil haqqı ibtidai siniflərdə 12500 manat, V-VIII siniflər üzrə isə 14 min manat olub. IX-XI siniflərdə təhsil haqqı bahalaşaraq 16500 manata çatıb. Halbuki, ötən tədris ili Xəzər Universitetinin Dünya Məktəbində Azərbaycan və rus bölmələrində ibtidai siniflər üçün təhsilhaqqı 9000 manat idi. V-XI siniflər üçün isə bu məbləğ 9500 manat təşkil edirdi. Məktəbin ingilis dili bölməsində isə təhsilhaqqı illik 10500 manat həddində müəyyənləşmişdi.

Təhsil eksperti Kamran Əsədov isə mövzu ilə bağlı bildirib ki, Azərbaycanda fəaliyyət göstərən özəl liseylərin verdikləri təhsil illik təhsil haqqına adekvat deyil. Onun sözlərinə görə, buraxılış imtahanlarının nəticələri də özəl liseylərin məzunlarının nəticələrinin ən ucqar kənd məktəbinin məzununun nəticəsindən fərqlənmədiyini göstərir.

Ekspertin sözlərinə görə, özəl liseylərin təhsil haqqı reallıqdan çox uzaqdır. Həmin təhsil haqqına şagirdlərə əlavə xarici dillər tədris oluna bilər. Sitat: "Türkiyədə yerləşən özəl liseylərdə belə qiymətlər Azərbaycandan aşağıdır. Bakı Atatürk Liseyini isə Türk Dünyası Araşdırmalar Vəqfi maliyyələşdirir. Onların icarə haqqına qədər Vəqf ödəyir. Bu halda uşaqları simvolik məbləğlə təhsilə cəlb edib hər il bahalaşdırmaq düzgün addım deyil. Bu qayda ən azından köhnədən təhsil alanlara şamil edilməməlidir. Azərbaycana gəldikdə isə, özəl liseylərin illik təhsil haqları fantastikdir. Çox güman ki, bu özəl liseylərin icarə haqlarının baha olması ilə bağlıdır".

Ekspert onu da əlavə edib ki, hazırda özəl liseylərdə təhsilin bir əhəmiyyəti qalmayıb: "İllər əvvəl özəl liseylər məzunlarının Avropa universitetlərinə qəbul olunması ilə öyünürdü. Hazırda adi orta məktəbi bitirən məzun da hazırlığa getməklə Avropa universitetlərinə qəbul oluna bilir".

Yada salaq ki, ötən il də özəl məktəblərdə təhsilhaqlarının yüksək olması ilə bağlı sosial şəbəkələrdə xeyli şikayətə rast gəlinirdi. Valideynlər təhsilhaqlarının verilən xidmətdən çox yüksək olduğunu düşünürdülər. Onların sözlərinə görə, özəl məktəblər artıq təhsil qiymətlərini 20-40 faiz artırıblar.

Bu il də oxşar vəziyyət müşayiət edilir və artıq valideynlər sözügedən bahalaşmadan narazılıqlarını yüksək səslə ifadə etməyə başlayıblar.

Özəl liseylərdəki mütəmadi qiymət artımları ilə bağlı ilginc bir iddia da var. Qeyd olunur ki, yeni özəl məktəblərin açılmasına maneə olduğu üçün bu seqment üzrə rəqabət, demək olar, yoxdur və bazar payı kiçik qruplar arasında bölüşdürülür. Onlar isə istədikləri məbləğdə ödəniş tələb edə bilirlər.

Bir sözlə, qarşımıza yenə inhisarçılıq çıxır və itirən bu dəfə də vətəndaşlardır.

Qazananların kim olduğu üzərində isə yaqin ki, çox baş sındırmağa dəyməz...

*Sənan Mirzə*

# "50 vakant ştat vahidi üzrə 300-dən artıq namizəd qüvvəsini sınayır" - Heydər Məmmədov



***"İndiyədək işə qəbulla bağlı keçirilmiş 25 müsabiqədə uğur qazanmış 1203 hüquqşünas prokurorluq işçilərinin 89,1% faizini təşkil edir".***

"Unikal" xəbər verir ki, bunu Baş prokurorun müavini Heydər Məmmədov jurnalistlərə açıqlamasında deyib.

H.Məmmədov bildirib ki, hazırda müsahibənin - I mərhələsi, yəni test mərhələsi keçirilir. "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə həyata keçirilən bu test mərhələsində, prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan 300-dən artıq namizəd iştirak edir.

"Azərbaycan Respublikasının prokurorluq orqanlarında işə qəbulla bağlı imtahanlar ilk dəfə ulu öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə əsasən keçirilib. 2002-ci ildən etibarən artıq 25 müsabiqə təşkil edilib. Bu müsabiqələrdə uğur qazanan 1203 gənc hüquqşünas prokurorluq orqanlarında işə qəbul olunub. Hazırda onlar prokurorluq əməkdaşlarının 89,1 faizini təşkil edir" - deyə o, əlavə edib.

"Sevindirici haldır ki, hazırda müsabiqə yolu ilə qulluğa qəbul olunmuş işçilərin bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilib, o cümlədən 169 nəfər hazırda müstəqil rayon və şəhər prokuroru kimi və müstəqil struktur qurumların rəhbəri kimi fəaliyyət göstərir və onlardan bir neçəsi xüsusi ali rütbə alıb" - deyə H.Məmmədov əlavə edib.

# Nigar Arpadarai: Biz özəl sektoru COP29-a cəlb etmək istəyirik

***"Biz bütün tərəflərlə işləməliyik". Bunu COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai deyib.***

O bildirib ki, prosesin inklüziv həyata keçirilməsinə çalışırlar: "Bir çox hallarda maraqlı tərəf olmayan iştirakçılar da prosesə yön verirlər. İqlim dəyişikliyi probleminin həllində maraqlı olmayan tərəflər də səfərbər olmalıdır, investisiya cəlb etməlidirlər. Bu prosesdə vətəndaş cəmiyyəti, yerli icmalar da töhfə verə bilər. Milli iqlim dəyişikliyi planları bütün insanları səlahiyyətləndirə bilər. İqlim dəyişikliyi cari təhdiddir. Artıq bu insanların həyatına təsir edir. Bu gələcək təhdid olmaqdan çıxıb".

Nigar Arpadarai özəl-dövlət tərəfdaşlığının bu problemin həllində mühüm olmasına diqqət çəkib: "Biz vətəndaş cəmiyyəti, özəl sektorla işləyirik. Özəl sektor tranzit keçidi öz strategiyalarında görürlər. Biz özəl sektoru COP29-a yaxından cəlb etmək istəyirik. COP29 CEO-ların bir araya gəlməsini istəyirik. İqlim maliyyəsi, özəl sektorun kapitalı olmasa, biz nəticələrə nail ola bilmərik. Kiçik və orta sahibkarlar hazırda çox geri qalır. Onlar 90% əmək bazarını təmin edir. Onlar keçidə adaptasiya olmalıdır. Təxminən 66% kiçik və orta sahibkarlar bildirir ki, onlara heç vaxt keçidlə bağlı sual verilməyib. Onlar bu prosesdən kənardadırlar. Biz onları prosesə cəlb etməliyik, onların maliyyəyə əlçatanlığının artırılmasına ehtiyac var. Bunu COP29 çərçivəsində edəcəyik. Biz bütün cəmiyyətin bu prosesdə iştirakını gözləyirik, maraqlı olmayan tərəfləri də dinləməyə hazırıq".

# AZAL Naxçıvan reyslərində onlayn qeydiyyat xidmətini təqdim edir

***Azərbaycanın milli aviadaşıyıcısı AZAL Naxçıvan istiqamətində rəqəmsal həllərin tətbiqini davam etdirir. Aviaşirkət rəqəmsallaşmanı və şəffaflığı artırmaqla yanaşı, sözügedən marşrut üzrə sərnişinlərə göstərilən xidmət keyfiyyətini yüksəltmək məqsədilə reyslərə onlayn qeydiyyat xidmətini istifadəyə verir.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Yeni xidmət sərnişinlərə uçuşa 48 saat qalmış www.azal.az saytında və ya aviaşirkətin mobil tətbiqində onlayn şəkildə qeydiyyatdan keçmək imkanı yaradır.

AZAL-ın mobil tətbiqini https://bit.ly/azal-app linkindən yükləmək olar. Onlayn qeydiyyat sərnişinlərə oturacaq yeri seçmək və uçuşa gecikmə riskini minimuma endirmək imkanı kimi bir sıra üstünlüklər təklif edir.

Qeyd edək ki, AZAL oktyabrın 1-dən etibarən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə aviabiletlərin onlayn alışı zamanı SİMA rəqəmsal imzanı tətbiq etməyə başlayıb. Bu yenilik də aviabiletlərin əldə edilməsi prosesinin rəqəmsallaşdırılması və şəffaflığın artırılması məqsədini daşıyır.

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:46 PM Page 11



# COP29 çərçivəsində İnsan İnkişafı Günü keçiriləcək



***COP29 çərçivəsində İnsan İnkişafı Günü keçiriləcək. Belə ki, bütün tərəfləri cəlb etməklə insan inkişafı, iriqasiya və gənclərlə bağlı tədbir olacaq.***

“Unikal” xəbər verir ki, bunu COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev PRE-COP29 konfransı çərçivəsində COP28, COP29 və COP30 sədrliklərinin birgə təşkilatçılığı ilə keçirilən TROİKA ölkələrinin ”1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi” mövzusunda yan tədbirdə deyib.

Bakının real fəaliyyətlərin qurulması istiqamətində mühüm tədbir olduğunu bildirən nazir Azərbaycanın COP29-da beynəlxalq əməkdaşlığı təşviq etdiyini bildirib: ”Biz ambisiyaları genişləndirməli, ölkələrə istixana qazlarını azaltmalarına imkan yaratmalıyı. Şəffaflıq inam və etibar quruculuğu istiqamətində vacib addımdır. Bizim fəaliyyətimiz koordinasiyalı olmalı, iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə cəlb etməliyik. Bizim fəaliyyətimiz iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılmasına hesablanmalıdır. İqlim dəyişikliyi ilə mübarizə fondunun yaradılması dövlət və özəl tərəfləri bir araya gətirəcək.

Adaptasiya qlobal səviyyədə fəaliyyətlərimizi genişləndirmək və sürətləndirmək üçün vacib sütundur. COP29 bizə şərait yaradır ki, fəaliyyətlərimizi genişləndirək.

COP29 Sədrliyi olaraq TRİO görüşlərini keçirir, sinerji yaratmağa və nəticələri tətbiq etməyə çalışırıq.

Qarşımızda olan yol asan deyil, lakin qətiyyətli addımlar ambisiyalarımızı həyata keçirməyə və nəticədə dayanıqlı gələcək qurmağa imkan yaratmış olacaq.

# Agentlik qərar verdi: qazimiz təhsilini davam etdirəcək



***Oktyabrın 9-da Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin rəsmiləri Bakı Reabilitasiya Mərkəzində Vətən müharibəsi qazisi Valeh İsayevi ziyarət edib. Görüş qazinin təhsilini davam etdirməsi ilə bağlı müraciətinin təmin edilməsi məqsədilə keçirilib.***

Bu barədə “Unikal”a Agentlikdən məlumat verilib. Valeh İsayev müharibədə ağır yaralanaraq hərəkət qabiliyyətini itirməsinə baxmayaraq təhsilini davam etdirmək istəyini bildirib. Görüş zamanı Agentlik rəsmiləri qazinin müraciətini dinləyib və onun xüsusi vəziyyəti nəzərə alınaraq qanunvericilik çərçivəsində təhsil hüququnun təmin olunması üçün uyğun tədbirlərin görüləcəyini bildiriblər.

Xatırladaq ki, yaxın zamanda mediada qazinin bacısı tərəfindən V. İsayevin sağlamlıq vəziyyəti ilə bağlı təhsilini davam etdirə bilməməsi barədə müraciəti yayılıb. Araşdırma nəticəsində məlum olub ki, Valeh İsayevin təhsilinin bərpası ilə bağlı Agentliyə və ya qəbul olduğu universitetə müraciəti daxil olmayıb. Bununla yanaşı, məsələ Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən nəzarətə götürülüb.

Qeyd edək ki, sosial baxımdan həssas əhali qrupuna aid tələbələr daim diqqətdə saxlanılır və onların təhsil almaq hüququnun təmin olunması üçün qanunvericilik çərçivəsində tədbirlər görülür.

# Şəhid atası vəfat etdi



***Vətən müharibəsi şəhidi Əli Qəmbərovun atası vəfat edib. Mahir Qəmbərov ötən gün yaşadığı Cəlilabad rayonunda dünyasını dəyişib.***

Qeyd edək ki, Əli Qəmbərov 2002-ci ildə anadan olub. 2020-ci il oktyabrın 6-sı Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib.

ELAN

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən İsmayılov Taleh Vilayət oğluna verilmiş AA03063 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

# Keçmiş icra başçısına ağır ittihamlar

## Sabiqlərin izi ilə: Əbülfəz Ağayev Kürün 8 qolunu qurudub?

***”Unikal” qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz 3 rayonda icra başçısı postu tutmuş Əbülfəz Ağayev haqqındadır.***

Hazırda 67 yaşı olan Ağayev 1984-cü ildə Neftçala rayonu Komsomol Komitəsinin birinci katibi, 1987-ci ildə Neftçala rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Aqrar-Sənaye Birliyinin rəisi, 1989-cu ildə Rayon Aqrar-Sənaye Kombinatının baş direktoru, Rayon İcra Hakimiyyəti Başçısının müavini, Kənd Təsərrüfatı və Ərzaq İdarəsinin rəisi, 1995-ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi, 2000-ci ildə Neftçala Rayon Bələdiyyəsinin sədri işləyib. Elə bələdiyyə sədri postundan da onun 12 illik icra başçısı karyerası başlayıb.

Belə ki, Əbülfəz müəllim 2000-2002-ci illərdə Neftçalanın, 2002-2004-cü illərdə Sabirabadın, 2004-2012-ci illərdə isə İmişlinin icra başçısı vəzifəsində çalışıb.

O, həmin vəzifələrdə işlədiyi dövrdə medianın daim diqqətində olub - fəaliyyəti ilə bağlı çoxsaylı tənqidlərin, vətəndaş şikayətlərinin ardı-arası demək olar ki, kəsilməyib. Ağayev yerli sahibkarları incitməkdə, rəhbəri olduğu rayonların sosial-iqtisadi inkişafına laqeyd yanaşmaqda, həmin rayonlara ayrılan büdcə vəsaitlərini səmərəsiz xərcləməkdə, rüşvət və korrupsiyaya meydan verməkdə günahlandırılıb.

Hətta 2014-cü ildə onun bacısı oğlu Nazim Muradovun dayısına qarşı ittihamları ölkə KİV-lərində geniş əks-səda doğurmuşdu. Muradov iddia eləmişdi ki, o, 2002-ci ildən 2012-ci ilə qədər Əbülfəz Ağayevin sürücüsü olub. ”Ona heç bir xəyanətim olmayıb... Əbülfəz Ağayev İmişlidə icra başçısı işləyəndə bütün taladığı mülkləri mənim adıma rəsmiləşdirib. Lakin mənim etibarımdan istifadə edəndən sonra məni küçəyə atdı. Öz şəxsi mənafeləri üçün istifadə edən dayım Əbülfəz Ağayev hətta mənim kolxoz mülkiyyətçisi olaraq payıma düşən «ZİL» markalı yük maşınımı da ələ keçirdi. Mən əmlakımı geri almaq üçün məhkəməyə müraciət etmişəm” deyən Muradov əlavə etmişdi ki, dayısı Neftçala rayon Məhkəməsinin hakimi ilə gizli şəkildə anlaşaraq 2013-cü ilin iyul ayının 31-də ona qarşı saxta qərar çıxarıb: ”Məhkəmə qərar çıxardı ki, mən Əbülfəz Ağayevə 10 100 manat ödədikdən sonra maşını əldə edə bilərəm... Dayım bilir ki, mən halal əmlakımı geri almaq üçün mübarizə aparacam. Ona görə də hər yerdə məni hədələyir, təhdid edir. Lakin mən geri çəkilən deyiləm. Əbülfəz Ağayevin sürücüsü olduğum zamanlarda etdiyi bütün qanunsuzluqlar barədə danışacağam”.

Natiq Muradov onu da demişdi ki, sabiq icra başçısı Neftçalada böyük biznes imperiyası qurub. Hətta vəzifədə olarkən şəxsi əyləncəsi və istirahəti üçün özünə yaxta da aldırıb.

Lakin Ə.Ağayev nə özü barəsində bu, nə də digər ittihamlara heç vaxt reaksiya verməyib. Barəsində yazılanları nə təsdiq, nə də təkzib edib, daim susqun qalmaqla kifayətlənib.

Bu günlərdə isə sabiq icra başçısının adı növbəti qalmaqalla gündəmə gəlib. Belə ki, Qarabağ veteranı, fermer İslam Bayramov onu Kür çayının 8 qolunu qurudaraq özü üçün təsərrüfat sahəsi yaratmaqda günahlandırıb.

Fermerin sözlərinə görə, Əbülfəz Ağayevin qanunsuz əməlləri bununla bitmir. O, dövlət ehtiyat fond torpaqlarını da zəbt edib. Lakin hansısa səbəbdən rayon rəhbərliyi onun bu əməlləri barədə tədbir görmür.

İslam Bayramovun sözlərinə görə, Əbülfəz Ağayev həm də rayon Ağsaqqallar Şurasının sədridir. ”Bu adam guya bir ağsaqqal kimi rayonun inkişafına dəstək verməlidir. Amma faktiki olaraq qanunsuz əməllərlə məşğuldur. İri təsərrüfatlar yaradıb digər fermerlərin fəaliyyətinə maneə törədir. Onun üçün Neftçalada yaşıl işıqdır. Hər cür qanunsuzluq edir. Amma barəsində tədbir görülmür” deyə İslam Bayramov bildirib.



Şikayətçi deyib ki, Əbülfəz Ağayev başqa rayonlardan xüsusi adamlar gətirərək zəbt etdiyi torpaqları onların istifadəsinə verir. Eyni zamanda örüş yerlərini ələ keçirib başqa rayonlardan gətirilən mal-qaraları ora buraxır. ”Bizim heyvanlarımız isə acından ölür”, deyə İslam Bayramov bildirib.

Maraqlıdır ki, sabiq icra başçısı özü barədə yuxarıdakı ittihamları da cavabsız qoyub, hər hansı münasibət bildirməyib.

Bəs Ə.Ağayev indi haradadır və nə işlə məşğuldur? ”Unikal”ın əldə etdiyi məlumata görə, sabiq icra başçısı doğulub boya-başa çatdığı Neftçalada yaşayır və rayondakı biznesini idarə edir. Onun adı çəkilən rayonda iri təsərrüfat sahələrinin, fermalarının olduğu bildirilir. Bura balıqçılıq müəssisəsi də daxildir.

***Sənan Mirzə***

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:46 PM Page 12



## 5.3.9. azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycançılıq ideyası xalqımızın vahid ideologiyasına çevrilib!

## Ceyhun Məmmədov: "Dövlət azərbaycançılıq ideologiyasının ölkədə geniş təbliği üçün ciddi addımlar atır"



***Hər bir xalqın özünəməxsus tarixi, mədəniyyəti, dəyərləri, milli xüsusiyyətləri mövcuddur. Təbii ki, milli kimliyinə, dəyərlərinə, mədəniyyətinə sahib çıxmayan xalq heç bir zaman tarixdə qala bilməz! Azərbaycan dövləti öz müstəqilliyini bərpa etdikdən sonra azərbaycançılıq ideologiyasının təbliğinə xüsusi diqqət yetirir.***

Ulu Öndər Heydər Əliyevin memarı olduğu azərbaycançılıq ideyası dövlətçiliyimizin möhkəmlənməsində müstəsna rol oynayır. İllərdir ki, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək dövlətçiliyimizin, milli maraqlarımızın qorunmasında səylərini əsirgəmirlər. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət- ənənələrini yaşatmalıyıq", - deyən ulu öndər azərbaycançılığı milli ideologiyaya çevirməyi, xalqımızın mənəvi birliyinə nail oldu.

Deputat Ceyhun Məmmədov da deyir ki, Azərbaycan cəmiyyətinin inkişafının təməlində azərbaycançılıq ideyası dayanır. O "Unikal" qəzetinə müsahibəsində bildirib ki, Azərbaycançılıq dövlət müstəqilliyini və milli təhlükəsizliyin qorunmasını strateji məqsəd kimi müəyyən edən Azərbaycan xalqının vahid ideologiyasıdır. Azərbaycan xalqı həmin ideologiya ətrafında sıx birləşib və tarixin bütün dövrlərində milli və mənəvi dəyərlərini qoruyub saxlaya bilib.

"Azərbaycançılıq ideologiyası dövlətimiz əleyhinə yönəlmiş anti-milli qüvvələrlə mübarizədə ən güclü silahımızdır. Milli ideologiyamız ölkədə hüquqi və sosial dövlət quruculuğunun inkişafına xidmət edir. Bu xidmətdə biz də vətəndaş borcumuzu yerinə yetirməliyik", deyə millət vəkili bildirib.

Həmsöhbətimiz bildirir ki, Azərbaycançılıq ideologiyası dedikdə ölkə daxilində, eləcə də xaricdə yaşayan müxtəlif xalqların, millətlərin və dinlərin nümayəndələrinin bir çətir altında, vahid təfəkkür və vahid ideologiya ətrafında toplaşması başa düşülür. Onun sözlərinə görə, bu gün ölkədə xeyli sayda millətlərin nümayəndələri, fərqli dinlərə mənsub insanlar azərbaycançılıq ideologiyası ətrafında birləşiblər. Deputat xüsusi vurğulayıb ki, ölkəmizdə azərbaycançılıq ideologiyasının qorunması və təbliği uğurla icra edilir. Dövlət azərbaycançılıq ideologiyasının geniş təbliğində maraqlıdır. Millət vəkili deyir ki, azərbaycançılığın dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin ideologiya Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri sayəsində müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilib: "Ümummilli Lideri Heydər Əliyevin həyat tarixçəsinə nəzər saldıqda onun Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında və tolerantlıq ənənələrinin möhkəmləndirilməsində müstəsna rol oynadığının şahidi oluruq. Məhz ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi əsaslarla tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və dini abidələrimizin bərpası istiqamətində sistemli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Bütün bu addımlar strateji düşüncə və böyük uzaqgörənliklə atıldı. Heydər Əliyev irsinə dərin ehtiram nümayiş etdirən möhtərəm Prezident İlham Əliyev də fəaliyyəti müddətində azərbaycançılıq məfkurəsinin geniş ictimai dəyər qazanmasına çalışıb, bu siyasəti böyük uğur və peşəkarlıqla davam etdirib. Sözsüz ki, dövlət azərbaycançılıq ideologiyasının ölkədə geniş təbliği üçün ciddi addımlar atır. Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva öz əməlləri və fəaliyyətləri ilə bu mənada nümunəvi yanaşma sərgiləyirlər. Bu baxımdan, Azərbaycanda azərbaycançılıq ideologiyasının uğurla həyata keçirildiyini əminliklə deyə bilərik".

Qeyd edək ki, Azərbaycançılıq ideyasının gücünü, nəyə qadir olduğunu, milli birliyin, həmrəyliyin qüdrətini 44 günlük Vətən müharibəsində hər birimiz çox yaxşı müşahidə etdik. Məhz birliyimiz, həmrəyliyimiz, Azərbaycançılıq ideyası ətrafında bir yumruq kimi birləşməyimiz qələbəyə nail olmağımızda əsas, həlledici rol oynadı. 44 günlük Vətən müharibəsi dövründə dünyanın harasında yaşamasından asılı olmayaraq, ürəyi vətən sevgisi ilə döyünən hər bir azərbaycanlı milli maraqlarımızın təmin olunmasında bacardığı qədər səy göstərdi. Bu bir daha Azərbaycan xalqının vahid, bölünməz olduğunu, söhbət Vətən olarsa, milli maraqlarımız olarsa bir yumruq kimi birləşdiyimizi dünyaya sübut etdi!

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# "SİMA Token"in onlayn sifarişi mümkün oldu



***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC vətəndaşlar və sahibkarlar üçün "SİMA Token" elektron imzasını onlayn sifariş etmək imkanını yaradıb. Artıq istənilən vaxt www.sima.az saytı vasitəsilə "SİMA Token" elektron imzasını sifariş etmək mümkündür.***

Vətəndaşlar sifariş prosesini uğurla tamamlamaq üçün saytda onlayn sorğu yaradaraq şəxsiyyət vəsiqəsi məlumatlarını, gizli cavabını, çatdırılma ünvanını (özünə yaxın poçt məntəqəsi) və əlaqə məlumatlarını qeyd etməlidirlər. Məlumatlar təqdim edildikdən sonra sifariş üçün müqavilə "SİMA İmza" ilə imzalanır. Vətəndaşlar üçün 3 illik Token imzasının məbləği 18 AZN təşkil edir.

Sahibkarlar isə "SİMA Token" imzası sifariş etmək üçün şəxsiyyət vəsiqəsi məlumatlarını, gizli cavabını, VÖEN nömrəsini, çatdırılma ünvanını (özünə yaxın poçt məntəqəsi) və əlaqə məlumatlarını qeyd etməlidirlər. Məlumatlar təqdim edildikdən sonra sifariş müqaviləsi "SİMA İmza" ilə imzalanır. Sahibkarlar üçün 3 illik Token imzasının məbləği 36 AZN-dir.

Buna qədər "SİMA Token" sifariş etmək üçün vətəndaşlar və sahibkarlar xidmət məntəqəsinə getməli olurdular. İndi isə imzanı onlayn sifariş etməklə istifadəçilər satış məntəqələrinə getmədən və növbə gözləmədən vaxta qənaət edirlər. Elektron imza hazır olduqdan sonra isə onu təhvil almaq üçün seçdikləri poçt məntəqəsinə yaxınlaşmaq kifayətdir.

"SİMA Token"in əsas üstünlükləri tanınma, məxfilik, bütövlük və inkaredilməzlikdir. Tokendən elektron imza tələb olunan bütün sahələrdə, o cümlədən elektron vergi portalında, ipoteka krediti müraciətlərində, elektron məhkəmə sistemi, mobil notariat, ƏMAS, bank-maliyyə xidmətlərində istifadə etmək mümkündür.

"SİMA Token"dən istifadə üçün ardıcıl olaraq imzalayıcı proqram təminatını, "driver"i və mərkəzi sertifikatı yükləyib quraşdırmaq lazımdır. Daha sonra "SİMA Token"i kompüterə qoşmaqla istənilən sənədi onlayn qaydada imzalamaq mümkündür. Elektron imza ilə bağlı daha ətraflı məlumatı www.sima.az saytından və ya "157" Zəng mərkəzi ilə əlaqə saxlayaraq əldə etmək olar.

# "Azercell" iki qızıl mükafata layiq görülüb

***Azercell Stevie Beynəlxalq Biznes Mükafatları tərəfindən "İlin Texnoloji Yeniliyi" və "İlin Korporativ Sosial Məsuliyyət Proqramı" nominasiyaları üzrə qalib seçilib.***

"Azercell Telekom" MMC-nin nailiyyətləri Stevie Beynəlxalq Biznes Mükafatlarının (IBAs) münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Lider mobil operator ölkədə süni intellekt əsasında çalışan ilk Azərbaycan dilli Virtual Assistent xidməti - "Aicell"in tətbiqinə görə "İlin texnoloji yeniliyi" nominasiyası üzrə Qızıl mükafata layiq görülüb.

Bundan əlavə, Azercell-in Azərbaycan Cüdo Federasiyası ilə əməkdaşlıqda həyata keçirdiyi "Qızlara ağ yaraşır" sosial kampaniyası "İlin korporativ sosial məsuliyyət proqramı" seçilməklə Qızıl mükafatçılar sırasında yer alıb.

Xatırladaq ki, Azərbaycan dilində tam spektr xidmət göstərən "Aicell" abunəçiləri operatorlara yönləndirmədən bir çox sorğuları dərhal yerinə yetirir, bununla da qısa müddət ərzində daha çox müraciətin cavablandırılmasına, həmçinin müştərilərin vaxtına qənaət edilməsinə dəstək olur.

"Qızlara ağ yaraşır" sosial layihəsinin əsas məqsədi qızları sağlam və fəal həyat tərzi sürməyə təşviq etməklə yanaşı, erkən nikahlara qarşı mübarizə aparmaq olub. Kampaniya çərçivəsində Azərbaycan Cüdo Federasiyasının məktəbləri və bölmələri olan bölgələrdə qeydiyyatdan keçən yeniyetmə qızlara cüdoqi və 1 ay ödənişsiz məşq hədiyyə olunub. Layihə minlərlə gənci idmanla məşğul olmağa sövq etməklə bərabər, cüdo ilə məşğul olan qızların sayında 100% artımla nəticələnib. Kampaniya dəfələrlə beynəlxalq və yerli mükafatlara layiq görülüb.

Qeyd edək ki, dünya işgüzar aləmində ən mötəbər mükafatlardan biri olan Stevie innovasiya, liderlik, müştəri xidməti, marketinq və insan qaynaqları kimi sahələrdə fərqlənən qurumları təltif edir və dünya üzrə 200-dən çox peşəkarın iştirak etdiyi ciddi qiymətləndirmə prosesi ilə tanınır.

35_27 IYUI-QARA.qxd 10/10/2024 10:46 PM Page 13



# Taksidən istifadə edənlərin sayı azalıb




***Taksi ilə bağlı həyata keçirilən tənzimləmələr artıq sərnişinlərin xüsusən də qısamüddətli səfərlərdə tədricən ictimai nəqliyyata keçməsi ilə nəticələnib.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev deyib.

O qeyd edib ki, bu il ötən illə müqayisədə xeyli irəliləyiş qeydə alınıb.

"Avtomobilə yaş məhdudiyyəti və minimum qiymət artımı tətbiq olunub. Taksi qanunvericiliyi qəbul olunub. Buna əsasən, mövcud taksilərə 15 il yaş qadağası, yeni taksilərin yaşı 8 il olmalıdır. Tələb olunan qurğular video kamera, POS terminal, avtomobilə rəng tələbləridir. Qanunvericiliyin mərhələli şəkildə tətbiqinə 2024-cü ilin aprelində başlanılıb. 2024-cü ilin sentyabrından 16 yaşlı taksilərin fəaliyyəti məhdudlaşdırılıb.

Artıq əhəmiyyətli nəticələr əldə edilib. Belə ki, 5.25 milyon sərnişin azalması qeydə alınıb. Onlardan 50% avtobusa, 20% metroya keçid edib. Orta qiymət 2.2 manat artıb. Parkın orta yaşı ötən il 14.6 il idisə hazırda 9 ildir. Orta səfər məsafəsi 34% artıb. Bununla yanaşı taksinin orta təqdim olunma vaxtı 1.2 dəqiqə artıb", - o əlavə edib.

# Açıq havada olan uşaqların piylənmə riski daha azdır



***Açıq havada olmaq uşaqlarda piylənmə riskini 15 % azaldır.***

"Unikal" xəbər verir ki, bu barədə araşdırmanı Yaponiyanın Okayama Universitetinin alimləri aparıblar. Aparılan tədqiqatlar nəticəsində açıq havada gəzməyin kiçik yaşlı uşaqları piylənmədən qoruya biləcəyi müəyyən edilib.

Mütəxəssislər tədqiqat zamanı 2001-ci ilin yanvar və iyul aylarında doğulan uşaqların məlumatlarını təhlil ediblər. Tədqiqatda 53,575 nəfər iştirak edib. Onlardan 42 812-si 2,5 yaşına qədər müntəzəm olaraq açıq havada oynayıb.

Sonrakı araşdırmalarda alimlər yeddi yaşında olan uşaqlardan götürülən nümunədən 31 743 uşağın boyu və çəkisi haqqında məlumat əldə ediblər. Məlum olub ki, tədqiqat iştirakçılarının yalnız 10%-də artıq çəki var və piylənmə əlamətləri var.

Açıq havada oynamayan uşaqlarla müqayisədə, açıq havanı sevən həmyaşıdlarının artıq çəki və ya obez olma ehtimalının 15% az olduğu müəyyən edilib.

***Zərifə Nağıyeva***

# Ağdaşda meyvə və giləmeyvə istehsalı artıb



***Son illərdə Ağdaş rayonda meyvə bağlarının salınmasına maraq artmışdır. 2024-ci ildə 152,4 hektar yeni meyvə bağları salınmışdır. Cari ilin doqquz ayında rayonunda ümumi sahəsi 3 min 686,8 hektar olan meyvə bağlarından 18 min 220,2 ton məhsul istehsal olunmuşdur. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,7 faiz və ya 976,8 ton çoxdur. Rayonda xurma bağlarının əkin sahəsi üstünlük təşkil edir. Belə ki ümumi əkin sahəsinin 41,9 faizini və ya 1 min 545 hektarını xurma bağları təşkil etmişdir.***

İndiyədək bağlardan 8 min 169,5 ton xurma, 4 min 988 ton alça, 3 min 959,1 ton nar, 2 min 305,0 ton heyva, 1 min 994,9 ton gilas, 585,7 ton gavalı və digər meyvələr istehsal olunmuşdur. Hazırda meyvə bağlarında məhsul yığımı davam edir. Meyvə istehsalı rayonun Yuxarı Ağcayazı, Dəhnəxəlil, Kükəl, Qolqəti, Aşağı Zeynəddin, Gürcuva və Birinci Aral kəndlərində daha çox müşahidə olunur.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Lütvəli Babayevin oğluna qarşı dələduzluq edənlərin məhkəməsi başladı



***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə Cinayət Məcəlləsinin 178.4-cü (xüsusilə külli miqdarda dələduzluq etmə) maddəsi ilə təqsirləndirilən şəxslər- Əliyev Aruz Mübariz oğlu və Kərimov Ehtiram Nazim oğlunun məhkəmə prosesinin hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, cinayət işində zərərçəkmiş qismində Zərdab rayonunun keçmiş icra başçısı Lütvəli Babayevin oğlu Babəli Babazadə tanınıb. Məhkəmədə onun nümayəndəsi vəkil Teymur Babayev iştirak edib. İlk olaraq təqsirləndirilən şəxs Ehtiram Kərimov zərərçəkənin məhkəmədə iştirakını tələb edib, 8 aydır girov saxlanıldığını deyib. İlk olaraq hakim təqsirləndirilən şəxslərin anket məlumatlarını dəqiqləşdirib.

Ehtiram Kərimov fərdi bizneslə məşğul olduğunu məhkəmənin nəzərinə çatdırıb. Aruz Əliyevin isə "Uniklinika" klinikasında hazırkı zamana kimi baş həkim vəzifəsinin saxlanıldığı məlum olub. Hazırlıq iclasında Ehtiram Kərimovun müqavilə ilə vəkili iştirak etmədiyindən təqsirləndirilən şəxs məhkəmə prosesinin hazırlıq iclasının davam etdirilməsi təxirə salınıb.

Məhkəmə prosesinin hazırlıq iclası 17 oktyabr tarixinə kimi təxirə salınıb.

Məlumata görə, Babəli Babazadənin dostu üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata sataraq pulunu mənimsəməkdə ittiham olunur.

Məsələ burasındadır ki, bu hadisə baş verməzdən əvvəl B.Babayevin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənilməli olduğu xatırladılıb. Bu məsələyə görə Babəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub.

Aruz Əliyev özü isə həkim-cərrahdır. O, bu cinayətin üstü açılana kimi "Uniklinika"nın baş həkimi olub.

İddia olunur ki, Aruz külli miqdarda vergi borcu yaranmış Babəliyə ölkədən çıxmasının lazım olduğunu deyib. O, tanışı Ehtiram Kərimovla əlbir olaraq eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasına nail olub.

Elə əsas hadisələr də bundan sonra başlayıb. Babəli Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruza etibarnamə verib. O, əmlakları satışa çıxarıb. Dediyinə görə, Aruz onun etibarından sui-istifadə edib. Aruz və Ehtiram Babəlinin Binəqədi rayonunda yerləşən yarımtikilisini və Nərimanov rayonundakı əmlakını ümumilikdə 2 milyon manata satıblar. Bundan sonra həmin pulu əmlakların sahibinə vermədən dələduzluq yolu ilə şəxsi mənafelərinə sərf ediblər.

Zərərçəkmiş şəxsin şikayəti əsasında baş həkim Aruz Əliyev və Ehtiram Kərimov polis əməkdaşları tərəfindən tutulub. Onlara dələduzluq maddəsinin ən ağır bəndi ilə ittiham irəli sürülüb, hər ikisi haqda həbs qərarı verilib.

İstintaq dövründə keçmiş icra başçısı Lütvəli Babayev də dindirilib. O, cinayət işi üzrə şahid qismində tanınıb.

Təqsirləndirilən şəxslər isə ittihamları qəbul etmirlər. Onlar deyirlər ki, zərərçəkmiş əmlaklarını könüllü satdırıb, pulunu da Türkiyədə xərcləyib. İttiham olunan tərəfin iddiasına görə isə Babəli ailəsinin əmlakını satıb xərclədikdən sonra vəziyyətdən çıxmaq məqsədilə dostundan istifadə edib.

Digər məlumata görə, Babəli Türkiyəyə qaçmazdan əvvəl xırda xuliqanlığa görə 15 gün həbsdə qalıb. Buraxıldıqdan dərhal sonra isə ölkədən gedib.

Yaxın vaxtlarda bu iş üzrə məhkəmə istintaqı başlayacaq. Həm zərərçəkmiş, həm təqsirləndirilən şəxslər işin halları barədə ətraflı məlumat verəcəklər. Məhkəmə proseslərini diqqətdə saxlayacağıq.

Xatırladaq ki, Lütvəli Babayev 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdabın icra başçısı işləyib.

Qeyd edək ki, iki il əvvəl bu iş üzrə zərərçəkmiş Babəli Babazadənin Azərbaycandakı biznesini Rusiyaya köçürməsi barədə mediada məlumat yayılıb. Mətbuatdakı xəbərlərə görə, o, Moskvada "Liqa-Stroy" Məhdud Məsuliyyətli Cəmiyyətini (OOO LİQA-STROY) təsis edib.

***Seymur Əli***

# COVID-19-dan sağalanları nə gözləyir?



***Koronavirus infeksiyasına yoluxmuş insanlarda ürək-damar xəstəliklərinin inkişaf riski əhəmiyyətli dərəcədə artır, insult və infarkt ehtimalı uzun müddət ərzində ikiqat artır.***

"Unikal" xəbər verir ki, bu barədə Klivlend alimləri araşdırma edib.

Arterioskleroz, Tromboz və Damar Biologiyası (ATVB) klinikası bildirir ki, elmi işdə xəstəlikdən sağalanlar və yoluxmayanların göstəriciləri müqayisə edilib.

Təcrübədə bir neçə il ərzində 200 mindən çox insan iştirak edib. Müəyyən edilib ki, COVID-19-a yoluxmuş insanlarda üç il ərzində insult riski artıb. Bundan əlavə, infeksiya ilə xəstəxanaya yerləşdirilənlərdə digər ciddi fəsadların yaranma riski də müşahidə edilib. Buna təsir edən əsas amillərdən biri xəstəlik tarixi idi - xəstənin artıq ürək-damar sistemi ilə bağlı problemləri varsa, risklər əhəmiyyətli dərəcədə artır.

***Ağarza Elçinoğlu***

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:46 PM Page 14



# DDLA-nın nümayəndələri Beynəlxalq Dəniz Təşkilatının sessiyasında ölkəmizi təmsil edib

***Dövlət Dəniz və Liman Agentliyinin (DDLA) nümayəndə heyəti Beynəlxalq Dəniz Təşkilatının (BDT) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı London şəhərində keçirilən Dəniz ətraf mühitinin mühafizəsi üzrə komitəsinin 82-ci sessiyasında ölkəmizi təmsil edib.***

"Unikal" xəbər verir ki, tədbirdə Agentliyin İdarə Heyəti sədrinin müşaviri Habil Abbasov və Dəniz ətraf mühitinin mühafizəsi şöbəsinin baş mütəxəssisi Fərid Murtuzov iştirak ediblər.



Sessiya çərçivəsində gəmilərin enerji effektivliyi, istixana qazlarının emissiyalarının azaldılması üzrə strateji hədəflərin müəyyən olunması, iqlim dəyişiklikləri ilə mübarizə üsullarının seçilməsi, həmçinin qəbul edilməsi üzrə hazırlanmış sənəd layihələri və digər məsələlər müzakirə olunub.

DDLA-nın nümayəndə heyəti Beynəlxalq Dəniz Təşkilatının baş katibi Arsenio Antonio Dominqes və Təşkilata üzv dövlətlərin nümayəndələri ilə görüşüb.

Görüş zamanı dəniz nəqliyyatı sahəsi üzrə gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Agentliyin nümayəndə heyəti, eyni zamanda cari ilin noyabr ayında Azərbaycanın dünyanın ən böyük tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi, həmçinin cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı görülən tədbirlərdən danışıblar.

# Güclü geomaqnit qasırğası olacaq

***Günəşin səthində bir sıra aktiv oblastlarda güclü X sinif (radiodalğaların yayılmasına güclü maneələr yaradan) alışmaların baş verdiyi müşahidə olunub. Oktyabrın 9-da gecə saatlarında Günəşdə güclü X1.8 alışması baş verib. Alışmalar səbəbindən yaranan güclü şüalanma və tac kütlə atılması (TKA) 10-12 oktyabr tarixlərində Yerə çatacaq.***

Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından "Unikal"a verilən xəbərə görə, Günəş aktivliyinin 11-12 oktyabr tarixinədək yüksək aktiv səviyyədə olacağı, eləcə də X alışmaların ola biləcəyi proqnozlaşdırılır. Yaranan Günəş qasırğaları (S1-S2 - nəzərə alınmayan-orta) oktyabrın 10-dək davam edəcək, sonrakı periodda fon səviyyəsinə enəcək. Həmin dövrdə Günəş küləyi parametrləri həyacanlaşmış vəziyyətdə olacaq. X1.8 alışması səbəbindən yaranan TKA planetlərarası fəzada saniyədə 1200-1400 km sürətlə yayılacaq, Yer yaxınlığında isə sürəti 600-700 km/s təşkil edəcək. Yaranmış bir neçə TKA hesabına Günəş küləyi zərbə keçidində olacaq. TKA-ların təsiri 10-12 oktyabr tarixlərində hiss ediləcək, oktyabrın 12-dən intensivliyi azalacaq, sonradan parametrlər fon səviyyəsinə enəcək. Yaranacaq qəfil impuls xüsusi peyklər tərəfindən 30-45 dəqiqə müşahidə olunacaq, sonrakı mərhələdə Yerdə olan maqnetometrlər vasitəsi ilə qeydə alınacaq.



10-11 oktyabr tarixlərində Yerin geomaqnit sahəsi həyacanlanmış səviyyədə, geomaqnit aktivliyi göstərən əmsal isə 6-7 olacaq. Oktyabrın 10-dan 11-nə keçən dövrdə G4 (güclü) geomaqnit qasırğasının olacağı proqnozlaşdırılır. Yerin maqnit sahəsinin təsirindən asılı olaraq geomaqnit sahə dəyişə bilər.

# Qəlbi Vətən sevdalı igid

***Cəlilabad rayonunun Uzuntəpə kəndində dünyaya göz açan Azərbaycan Ordusunun kapitanı olan Rəşad Əfras oğlu Quliyev 32 yaşında Vətən, millət yolunda canından keçərək adını tarixə yazıb. Nəsibi şəhidlik zirvəsi olan Rəşad 44 günlük haqq savaşımızda elə bir şücaət göstərib ki, o milyonların dilində qəhrəmanlıq nəğməsi kimi səslənir. Xalqımızın igid, vətənpərvər oğlu cismən aramızdan getsə də, 30 il düşmənə əsir düşən Qarabağımızın xilaskar ərənləri kimi həmişə ehtiramla xatırlanır...***

Orta məktəbdən sonra bitib-tükənməyən Vətən sevgisi, mənfur düşmənə nifrət hissi Rəşad Quliyevi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə aparıb. 2005-2009-cu illərdə burada ali təhsil almaqla hərb sənətinə mükəmməl yiyələnib.

Cəsur, vətənpərvər oğul kimi düşmənin işğalçılıq siyasəti ilə heç cür barışmayan Rəşad Quliyev xidmətə cəbhə bölgəsində başlayıb. Qəlbi Vətənə sevdalanan gənc zabitin nizam-intizamı, peşəkarlığı yalnız ona hörmət qazandırıb. Qayğıkeş komandir olaraq hər bir əsgərinə xüsusi diqqət göstərib.



Onları təhlükədən qoruyub, şəxsi nümunəsi ilə qəlblərində Vətənə sevgi, düşmənə nifrət tərbiyə edib. Torpağının hər qarışını özündən çox istəyən və qorxmaz zabit tez-tez düşmən postlarına kəşfiyyata getdiyinə görə ona "Canavar" ləqəbi verilib. Həmçinin qazandığı uğurlar Rəşad Quliyevi kapitan rütbəsinə qədər yüksəldib.

Kapitan Rəşad Quliyev erməni dığalardan ilk qisasını 2016-ci ildə- Aprel döyüşlərində alıb. Düşmənə ciddi itki verməklə üçrəngli qələbə bayrağımızı Lələ təpədə yüksəldənlərin önündə gedib. Göstərdiyi bu qəhrəmanlığını nəzərə alıb onu "İgidliyə görə" medalı ilə təltif ediblər.

Vətən müharibəsi başlayanda ən ağır döyüşlərdə Rəşad rəşadətlə, qəhrəmancasına vuruşub. Düşmənə itkilər verməklə neçə-neçə odun-alovun içindən üzüağ çıxıb. Tərtər rayonunun Talış və Suqovuşan qəsəbələrinin azadlığı uğrunda gedən döyüşlərdə düşmənə qan qusdurub. Cəsur kapitan oktyabrın 4-də yağı gülləsinə tuş gəlib və Vətənlə döyünən ürəyi əbədi olaraq dayanıb. Bu şərəfli ölümü ilə xalqın qürur yerinə çevrilib. Həm də kapitan Rəşad Quliyev ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda" medalına, 3-cü dərəcəli "Rəşadət" ordeninə layiq görülüb.

Bəli, Rəşad və onun kimi igid Vətən övladlarının İkinci Qarabağ müharibəsində torpaq uğrunda göstərdiyi qəhrəmanlıq heç vaxt unudulmaz. Zaman-zaman onların həyat yolu gələcək nəsillərə örnək olacaqlar.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

## İsmayıllıda ağac kəsən 8 nəfər saxlanıldı

***İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə İvanovka və Qalacıq kəndlərindəki meşə massivlərində ağacların naməlum şəxslər tərəfindən qanunsuz kəsilməsi faktları aşkar olunub.***

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Unikal"a verilən məlumata görə, 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları ilə birgə əraziyə baxış keçirilib və əməli tədbirlə 8 nəfər polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## Universitetlərin 70 faizində süni intellekt tədris olunacaq

***Universitetlərin 70 faizində süni intellekt tədris olunmağa başlayacaq.***

"Unikal" xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Bakıda keçirilən "İNMerge İnnovasiya Sammiti"ndə çıxışı zamanı deyib.

"Dayanıqlılığı gündəlik innovasiyaya inteqrasiya edirik ki, bu da təəccüblü deyil. Biz artıq COP29-a ev sahibliyi edirik. Bakı şəhərinin rəqəmsal əkizi yaradılır. Altı milyondan çox unikal məlumat məntəqəsi artıq daxil edilib. Bu, unikal bir şeydir. Biz rəqəmsal texnologiyalar üzərində də çalışmağa davam edirik", - deyə nazir qeyd edib.

## YDM-ə saxta əsginas verən şəxs saxlanıldı

***Oktyabrın 8-də saat 20 radələrində Binəqədi qəsəbəsi ərazisində yerləşən yanacaq doldurma məntəqələrinin birindən Binəqədi Rayon Mühafizə İdarəsinə həyəcan siqnalı daxil olub.***

"Unikal" xəbər verir ki, dərhal polis əməkdaşları həmin ünvana gəlib, aldığı yanacaq müqabilində oradakı işçiyə 20 manatlıq saxta əsginas verməkdə şübhəli bilinən 45 yaşlı S.Rüstəmov saxlanılıb.

O, araşdırma aparılması üçün 43-cü Polis Bölməsinə təhvil verilib.

## Ağdaşda tərəvaz və bostan məhsullarının istehsalı statistikası

***2024-cü ilin doqquz ayında Ağdaş rayonunda 1 min 566 hektar sahəsindən 33 min 449,2 ton tərəvəz və bostan məhsulları toplanmışdır. Hər hektardan məhsuldarlıq 213,6 sentner olmuşdur.***

Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,7 sentner çoxdur. İstehsal olunmuş tərəvəz və bostan məhsullarının arasında pomidor, xiyar, kələm, badımcan və qarpız əsas yer tutmuşdur. Belə ki, bu dövrdə sahələrdən 8 min 745,4 ton pomidor, 7 min 762,5 ton xiyar, 5 min 131,4 ton kələm, 3 min 228,8 ton qarpız və 3 min 135,5 ton badımcan məhsulu toplanmışdır. Mövsüm ərzində 45,7 hektar sahədə təkrar tərəvəz bitkiləri əkilmişdir. Tərəvəz və bostan məhsullarının istehsalı rayonun Birinci Aral, Xosrov, Şəmsabad, Aşağı Zeynəddin, Qaradağlı və Kotavan kəndlərində daha çox müşahidə olunur. Hazırda təsərrüfatlarda kənd təsərrüfatı məhsullarının toplanması və 2025-ci ilin məhsulu üçün əkinlərə hazırlıq davam etdirilir. Belə ki hazırda sahələrdə təmiz herik şumu da daxil etməklə cari ilin payızlıq əkinləri üçün 9401 hektar şum qaldırılmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:47 PM Page 15



# Sülh olmadan regionda inkişaf etmək mümkün deyil" - Ermənistan prezidenti

***Ermənistan regionda sabit və davamlı sülhə nail olmaq istiqamətində qətiyyətlə irəliləyir.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan prezidenti Vaaqn Xaçaturyan Berlində alman həmkarı Frank-Valter Ştaynmayerlə görüşündə deyib.

Ermənistan-Türkiyə münasibətlərinə toxunan prezident qeyd edib ki, Ermənistan tərəfi əvvəllər olduğu kimi, hazırda da ilkin şərt olmadan münasibətləri normallaşdırmaq mövqeyindən çıxış edir və bununla bağlı sərhəd infrastrukturlarının yaradılması və bərpası istiqamətində müəyyən addımlar atılıb.

Xaçaturyan vurğulayıb ki, Ermənistanın mövqeyi bütün qonşu dövlətlərlə müntəzəm və qonşuluq münasibətlərində olmaqdan ibarətdir və bu, regionun bütün ölkələrinin maraqlarına cavab verir: "Bizə aydındır ki, sülh, sabitlik və qonşuluq olmadan regionumuzda və ümumiyyətlə, bütün dünyada gözlənilən inkişafı əldə etmək mümkün deyil".

***Ağarza Elçinoğlu***

# "İsrail Yaxın Şərqi fəlakətə sürükləyir" - İran



***"İsrailin hərəkətləri Yaxın Şərqi fəlakətə sürükləyir".***

"Unikal" xəbər verir ki, İranın xarici işlər naziri Abbas Əraqçi bu fikri "X" sosial şəbəkəsindəki səhifəsində bildirib.

Nazirin sözlərinə görə, Yaxın Şərq ölkələrinə indi onlar üçün çətin anları aradan qaldırmaq üçün bəsirət, müdriklik və cəsarət lazımdır.

Xatırladaq ki, ötən ilin oktyabrın 7-si Fələstinin radikal HƏMAS hərəkatı ilə İsrail arasında münaqişənin başlayıb. Bir il əvvəl minlərlə silahlı HƏMAS yaraqlısı Qəzza zolağından İsrailə daxil olub, dinc əhaliyə hücum edib və 200-dən çox insanı girov götürüb. Buna cavab olaraq İsrailin baş naziri Benyamin Netanyahu ölkənin müharibə vəziyyətində olduğunu bəyan edib. Quru əməliyyatı başladılıb,onun məqsədi girovların qaytarılması və HƏMAS-ın tamamilə məhv edilməsidir.

Tehranda HƏMAS lideri İsmayıl Haniyənin ölümündən sonra İranla İsrail arasında gərginlik yenidən artıb.

***Gülayə Mecid***

# İsrail "Hizbullah"ın Suriyadakı üzvünü öldürdü

***İsrail aviasiyası "Hizbullah" təşkilatının silahlı birləşmələrinin üzvünü məhv etmək məqsədilə Suriya ərazisinə zərbələr endirib.***

"Unikal" xəbər verir ki, bu barədə ordunun mətbuat xidməti məlumat yayıb.

Daha əvvəl İsrail Hərbi Hava Qüvvələri Kuneytra şəhəri ərazisində hücuma keçirib və Azam Cahutu məhv edib. Hərbçilərin sözlərinə görə, o, "Hizbullah"ın Suriyadakı bazası olan Qolan təpələrində yerli "terror şəbəkəsi"nin tərkibində fəaliyyət göstərib. İsrail ordusunun məlumatına görə, Cahut Qolan təpələrində İsrailə qarşı əməliyyatı asanlaşdırmaq üçün Suriyada toplanmış kəşfiyyat məlumatlarını ötürüb.

# İsrail İran zavodunu vurdu

***İsrail Hərbi Hava Qüvvələri Suriyanın Hüms əyalətində İranın maşınqayırma zavodunu vurub.***

"Unikal" xəbər verir ki, bu barədə Hesya sənaye şəhərciyinin direktoru Amer Xəlil açıqlayıb.

Digər təfərrüatlar verilmir.

# Zelenski Londonda Starmerlə görüşdü

***Ukrayna prezidenti Volodimir Zelenski Londona səfər edib və Böyük Britaniyanın baş naziri Key Starmerlə görüşüb.***

"Unikal" xəbər verir ki, Böyük Britaniyanın paytaxtında Zelenskinin NATO-nun yeni baş katibi Mark Rutte ilə də görüşü olacağı gözlənilir.

***Gülayə Mecid***

# "Paşinyan 102 hərbi bazanın çıxarılmasına hazırlaşır" - Arutyunyan

***Oktyabrın 8-də Paşinyanla Putinin Moskvada görüşündə razılıq əldə olunub ki, bir neçə aydan sonra, 2025-ci il yanvarın 1-də Rusiya sərhədçiləri Ermənistan-İran sərhədində xidməti fəaliyyətini dayandıracaq, onlar oranı tərk edəcəklər, erməni sərhədçilər öz yerində xidmət göstərəcəklər.***



"Unikal" xəbər verir ki, bu barədə Nikol Paşinyanın mətbuat katibi Nazeli Bağdasaryan öz "Facebook" səhifəsində yazıb.

"Baş nazir Paşinyan Ermənistan Respublikası müstəqillik əldə etdikdən sonra Rusiya FTX-nin Sərhəd Qoşunlarının Ermənistan və İran İslam Respublikası arasında dövlət sərhədinin nəzarət-sərhəd məntəqəsində göstərdiyi xidmətə görə prezident Putinə təşəkkür edib", - Bağdasaryan bildirib.

Şəbəkə Araşdırmaları İnstitutunun direktoru, politoloq Qaqik Arutyunyanın sözlərinə görə, Paşinyan uzun müddətdir ki, Ermənistandan 102 hərbi bazanın çıxarılmasına hazırlaşır. Ona görə də Rusiya sərhədçilərinin Ermənistan-İran sərhədindən çıxarılması bu işlərin tərkib hissəsidir: "Bu hökumətin etdiyi hər hansı təşəbbüs ölkəmiz üçün müxtəlif təhlükələrlə doludur. İran xüsusən də "Zəngəzur dəhlizi" ilə bağlı dəfələrlə bəyan edib ki, bu, Ermənistan-İran sərhədini zəiflədir, çünki ruslar bu məsələdə həmişə intizamlı olublar, o sərhədi saxlayıblar. İndi baş verənlər bizim sərhəd xidmətimizin təhlükəsizliyini zəiflədir. Ən pisi isə Rusiya sərhədçiləri Ermənistan-Türkiyə sərhədini tərk edəndə olacaq.

Hökumətin addımlarının ardıcıllığının məntiqi onu deməyə əsas verir ki, Rusiyanın 102 hərbi bazası da tezliklə geri çəkiləcək. Türkiyənin istədiyi də budur. Bundan sonra hərbi bazanın çıxarılması məsələsi qaldırılacaq".

***Ağarza Elçinoğlu***

# "Ukraynadan atəşkəsə dair heç bir siqnal almamışıq" - Peskov



***Rusiya Qərbin zəmanəti müqabilində Kiyevin atəşkəsə hazır olduğuna dair siqnal almayıb.***

"Unikal" xəbər verir ki, bunu Rusiya liderinin mətbuat katibi Dmitri Peskov jurnalistlərlə söhbətində bildirib.

"Xeyr, biz siqnallar almadıq, indi bu məsələdə çoxlu əsaslandırma və sxolastika var", - deyə Peskov vurğulayıb.

Onun sözlərinə görə, bu məsələ ilə bağlı mətbuatda çoxlu spekulyasiyalar gedir, amma heç kim heç bir tədbir görmür.

Bundan əvvəl "Corriere della Sera" qəzeti Ukrayna prezidenti Volodimir Zelenskinin yeni sərhədləri tanımadan atəşkəsə hazır olduğunu, lakin Aİ-yə sürətləndirilmiş üzvlük zəmanəti almaq istədiyini yazıb.

***Gülayə Mecid***

# Ərdoğan ard-arda 2 ölkəyə gedir

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 10-11-də Albaniya və Serbiyada olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Cumhuriyyəti Rəyasət Heyətinin İctimaiyyətlə Əlaqələr Şöbəsi məlumat yayıb.



Ərdoğanın səfəri çərçivəsində ikitərəfli münasibətlərin inkişafı, eləcə də müxtəlif sahələrdə mövcud əməkdaşlıqla bağlı müzakirələrin aparılması planlaşdırılır.

Türkiyə lideri hər iki ölkədə dövlətlər arasında yüksək səviyyəli əməkdaşlıq şurasının iclasına sədrlik edəcək.

Serbiyada keçiriləcək işgüzar konfransda Türkiyə və Serbiya prezidentlərinin iştirakı da nəzərdə tutulub. Ərdoğanın gündəmində qlobal və regional məsələlərlə yanaşı, Balkanlar və Fələstinin Qəzza zolağındakı vəziyyət və İsrailin Livandakı əməliyyatları da olacaq.

Səfərlər zamanı müxtəlif sazişlərin imzalanması planlaşdırılır.

***Ağarza Elçinoğlu***

# "Ukrayna Belarusu münaqişəyə cəlb etmək istəyir"

***Ukrayna Belarusu münaqişəyə cəlb etməyə çalışır.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Axmat xüsusi təyinatlılarının komandiri Apti Alaudinov məlumat yayıb.

2Məlum olur ki, əgər indi bu müharibəni Belarusa köçürsək, avtomatik olaraq Belarus və Ukrayna ilə müharibənin olduğu və bütün NATO blokunun avtomatik olaraq işə qarışdığı üzə çıxır. Rusiya isə mütləq NATO blokuna qarşı mübarizə aparmağa məcbur olacaq", - Alaudinov qeyd edib.

Axmat xüsusi təyinatlılarının komandiri Ukraynanın hərəkətlərini İsrailin İranı Yaxın Şərqdəki münaqişəyə cəlb etmək cəhdləri ilə müqayisə edib.

# "Bayden Harrisə nifrət edir" - Donald Tramp

***ABŞ prezidenti Co Bayden vitse-prezident Kamala Harrisə Demokratlardan Ağ Evə namizəd olaraq onu əvəz etdiyinə görə nifrət etməyə başlayıb.***

"Unikal" xəbər verir ki, bunu keçmiş Amerika lideri və Respublikaçılar Partiyasının namizədi Donald Tramp Skranton şəhərində mitinqində deyib. Tədbir "X" sosial şəbəkəsində yayımlanıb.

"Ona əsəbiləşir, nifrət edir. Sual odur ki, o, mənə nifrət etdiyi qədər ona da nifrət edirmi? Bu, çevrilişdir. Onun üçün yarışı öz istəyi ilə tərk etdiyini söyləmək çətindir", - Tramp ifadə edib.

O, siyasi rəqibini fəal şəkildə tənqid etməsinə baxmayaraq, Baydenin Harrislə müqayisədə "olduqca yaxşı" göründüyünü söyləyib.

***Gülayə Mecid***

35_27 IYUl-QARA.qxd 10/10/2024 10:47 PM Page 16



# "Xal qazanmaq üçün real şansımız var" - Estoniya millisinin futbolçusu



***"Azərbaycanla evdə keçirəcəyimiz oyunda xal qazanmaq üçün real şansımız var".***

"Unikal" xəbər verir ki, bu sözləri Estoniya yığmasının futbolçusu Mattias Kyayt UEFA Millətlər Liqasının qrup mərhələsində Azərbaycan millisinə qarşı keçirəcəkləri oyundan öncə təşkil olunmuş mətbuat konfransında deyib. Hazırda Rumıniyanın "Rapid" klubunda çıxış edən yarımmüdafiəçi komandasının meydana istəkli çıxacağını bildirib: "Bu stadion azarkeşlərin qələbəni səbirsizliklə gözlədikləri yerdir. Biz sabah mütləq şəkildə Azərbaycana qalib gəlmək istəyirik. Bu da 3 gün sonra İsveçlə keçirəcəyimiz qarşılaşmadan öncə motivasiyamızı yüksəldəcək. İstənilən rəqiblə oyun futbolçunu təzyiq altında saxlayır. Bunun performansımıza pis təsir etməməsi üçün çalışacağıq".

Qeyd edək ki, oktyabrın 11-də "Lilleküla" stadionunda oynanılacaq Estoniya - Azərbaycan qarşılaşması Bakı vaxtı ilə saat 20:00-da start götürəcək.

# Futbolçu hovuzda ölü tapıldı

***Yunanıstan millisinin və "Panatinaikos"un müdafiəçisi Corc Baldok 31 yaşında vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə Yunanıstanın "Sport24" nəşri məlumat yayıb.

Bildirilir ki, futbolçu evinin yaxınlığındakı hovuzda ölü tapılıb. Ölümün dəqiq səbəbi məlum deyil. 2024/25 mövsümündə Baldok Yunanıstanın "Panatinaikos" klubuna keçib və klubda üç oyun keçirməyi bacarıb. Futbolçu karyerasına İngiltərənin "Milton Keynes Dons" klubunda başlayıb. 2009-2017-ci illər arasında 104 oyun keçirib və iki qol vurub. Baldokun 2017-2024-cü illərdə çıxış etdiyi "Şeffild Yunayted"də 205 oyuna çıxıb və altı dəfə qol vurub.



***Gülayə Mecid***

# Millimiz mübarizəni dayandırdı

***Çimərlik futbolu üzrə Azərbaycan millisi İspaniyanın Kadis şəhərində keçirilən dünya çempionatı ilə vidalaşıb.***

"Unikal" xəbər verir ki, Sahib Məmmədovun başçılıq etdiyi yığma 1/8 finalda Portuqaliya seçməsi ilə üz-üzə gəlib. Görüş rəqibin 13:5 hesablı qələbəsi ilə yekunlaşıb.

Bununla da Azərbaycan millisi mübarizəni dayandırıb.



# Mourinyo Arda Güləri istəyir

***Joze Mourinyo "Real Madrid"in futbolçusu Arda Gülərin "Fənərbaxça"ya transferini istəyir.***

Bu barədə "Diario AS" məlumat yayıb. Portuqaliyalı mütəxəssis türk ulduzun transferini rəhbərlikdən tələb edib. O, mövsümün ikinci yarısında yarımmüdafiəçini icarə əsasında komandasında görmək istəyir.



Nəşr yazır ki, İstanbul klubunun idman direktoru Mario Branko artıq 19 yaşlı futbolçu ilə bağlı Madrid təmsilçisi ilə danışıqlara başlayıb.

"Fənərbaxça" "kral klubu"nun Güləri daimi olaraq satmaq niyyətində olmadığını bildiyi üçün, onu bu yanvar "transfer pəncərəsi"ndə icarəyə götürmək üçün çalışacaq.

Klub prezidenti Ali Koçun da gənc ulduzu İstanbula qayıtmağa razı salmaq üçün danışıqlara qatıla biləcəyi bildirilir.

Xatırldaq ki, Arda Gülər 2023-cü ilin yayında "sarı-lacivərdlilər"dən İspaniya nəhənginə transfer olub.

# Azərbaycan kubokunda hakim təyinatları açıqlandı



***Azərbaycan kubokunun 1-ci təsnifat mərhələsində keçiriləcək qarşılaşmalara hakim təyinatları açıqlanıb.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, oyunları aşağıda adları qeyd olunan hakimlər idarə edəcək:

**12 oktyabr**

"Şahdağ Qusar" - "Kür-Araz"
Şamaxı OİK. Saat 14:00
Hakimlər: İslam Məmmədov, Elmin Süleymanov, Mirnihat Seyidov, Rəsul Babayev
"Şəfa" - "Saatlı-Araz"
ASK Arena. Saat 16:30
Hakimlər: Rövşən Rəcəbov, Rasim Axundov, Nurlan Əhmədzadə, Maqsud Şamıyev

**13 oktyabr**

"Şimal" - "Qusar"
Siyəzən. Saat 14:00
Hakimlər: Səbuhi Bayramov, Sənan Atayev, Samir Qaracayev, Emin Abdullayev
"Lerik" - "Ağdaş"
Lənkəran OİK. Saat 14:00
Hakimlər: Murad Səlimov, Orxan İbişov, Zakir Şükürzadə, Sənan Bayramzadə
"Şəki Siti" - "Şəmkir"
Şəki. Saat 14:00
Hakimlər: Vüqar Həsənli, Anar Bədəlov, Aydın Bəxşiyev, Niyaz Əhmədov
"Göygöl" - "Hypers-Quba"
Göygöl OİK. Saat 15:00
Hakimlər: Elvin Bayramov, Vüqar Bayramov, Asif Abdullayev, Nazim Süleymanov

**14 oktyabr**

"Dinamo" - "Füzuli"
Neftçi Futbol Mərkəzi. Saat 13:30
Hakimlər: Ruslan Quliyev, Səbuhi Əmrahov, Səbuhi Soltanov, Namiq Bəkirov.

# Ten Haq çarəni hasar çəkməkdə gördü

***"Mançester Yunayted"in baş məşqçisi Erik ten Haq klub rəhbərliyinə yeni tələb irəli sürüb.***

QOL.az xəbər verir ki, bu barədə "The Sun" məlumat yayıb. O, məşqlərin gizliliyini və oyunçuların rahatlığını təmin etmək üçün klubdan məşq meydançasında divar çəkməyi tələb edib.

"Mançester Yunayted" rəhbərliyi buna razılıq verib və divar təxminən 2 həftə əvvəl ucaldılıb. Eyni zamanda, divarın dəyəri klub işçiləri arasında çaşqınlıq yaradıb. Çünki "Mançesyer Yunayted" bu yaxınlarda xərcləri azaltmaq üçün ciddi tədbirlər görməyə başlamışdı. Lakin klub Ten Haqın istəyi ilə məşq meydançasının hasarlanmasına 261 min dollar xərcləyib.

Qeyd edək ki, "Mançester Yunayted"in Premyer Liqada uğursuzluğu davam edir. Komanda 7 matçdan yalnız 2-də qələbə qazana bilib. "Mançester Yunayted" 2 dəfə heç-heçə edib, 3 dəfə uduzub. Hazırda "qırmızı şeytanlar" turnir cədvəlində 8 xalla 14-cüdürlər.

# Ronaldonun komandası Tehrana getməkdən imtina etdi

***Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun Asiya Çempionlar Liqasında "İstiqlal"la (İran) oyununun yeri dəyişdiriləcək.***

QOL xəbər verir ki, bu barədə İspaniyanın "Marca" nəşri məlumat yayıb.

Kriştiano Ronaldonun da çıxış etdiyi "Əl-Nəsr" Yaxın Şərqdəki münaqişəyə görə İranın paytaxtı Tehrana getməkdən imtina edib. Matçın oktyabrın 22-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilməsi gözlənilir..

Xatırldaq ki, bundan əvvəl Hindistanın "Mohun Baqan" klubu "Traktor"la Təbrizdə keçirilməli olan səfər matçına getmədiyi üçün Çempionlar Liqasından kənarlaşdırılıb.